Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

17
OKTYABR
2019-cu il
№ 185 (4083)

Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

■ səh. 8 ■

# ABŞ-ın TÜRKİYƏYƏ QARŞI İQTİSADİ SAVAŞI SƏRTLƏŞİR, SAVAŞIN AZƏRBAYCANA MÜMKÜN TƏSİRLƏRİ MÜZAKİRƏDƏ...

Türkdilli dövlətlərin onillik inteqrasiya prosesində Azərbaycanın rolu - Prezident konkret istiqamətlər göstərdi...
■ səh. 3 ■

Türkdilli ölkələrin dünya bazarlarına çıxışında Azərbaycanın tranzit imkanları...
■ səh. 6 ■

ABŞ Türkiyənin "İncirlik" bazasındakı nüvə silahlarını çıxarır - iki NATO ölkəsi arasında görünməmiş gərginlik...
■ səh. 4 ■

9 ayda Azərbaycan 2 milyard dollarlıq qaz ixrac etdi, gələn il bu azı iki dəfə artacaq
■ səh. 10 ■

Azərbaycanda Türkiyənin 12, Türkiyədə Azərbaycanın 15 milyard dollar yatırımı - aradakı fərqi necə azaltmalı...
■ səh. 6 ■

Azərbaycana gələn 2,4 milyon turistin cəmi 330 mini türk dövlətlərindən - türk dövlətlərinin xüsusi çəkisini necə artırmaq olar...
■ səh. 11 ■

Azərbaycan xalqına yaraşmayan təzahür - ictimai yerlərdə qadın saçyolduları artır
■ səh. 13 ■


■ səh. 5 ■

## Türk dövlətlərinin inteqrasiyasında Naxçıvan mərhələsini simvollaşdıran tarix - Prezidentin təhlilinə mütəxəssislər qoşuldu



Koreyanın spikeri ölkəsinin Türk Dövlətlər Birliyində müşahidəçi statusu ilə iştirakını Prezident Əliyevdən xahiş etdi
■ səh. 2 ■

Azərbaycanın yeni hava döyüş texnikaları - Ermənistanda artan müharibə ehtimalını daha ciddi nəzərə almağa başlayırlar
■ səh. 9 ■



Dərinləşən Rusiya-Azərbaycan münasibətlərinə qarşı «Zatulin» təxribatı...
■ səh. 4 ■

■ səh. 2 ■
MQ həmsədrləri niyə hər dəfə region səfərini Ermənistan və qondarma "DQR"dən başlayır...



■ səh. 3 ■
Azərbaycanın sədrliyi türk dövlətlərinin inteqrasiyasına daha nələr verəcək...



■ səh. 7 ■
Fuad Qəhrəmanlıya ailə zorakılığına görə cinayət işi açıldı



■ səh. 11 ■
Kiçik və orta sahibkarlığın inkişafında türkdilli ölkələr üçün Azərbaycan modeli...



■ səh. 13 ■
Məktəblərdə pedaqoji şuraların formallığına nazirlik də tənqidi yanaşdı...



# Koreyanın spikeri ölkəsinin Türk Dövlətlər Birliyində müşahidəçi statusu ilə iştirakını Prezident Əliyevdən xahiş etdi

**Prezident İlham Əliyev oktyabrın 16-da Koreya Respublikası Milli Assambleyasının sədri Mun Hi-sanqın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, Azərbaycanda 70-ə yaxın Koreya şirkəti rəsmi qeydiyyatdan keçib. Bir neçə Koreya şirkəti Azərbaycanda müxtəlif infrastruktur və inşaat layihələrində iştirak edir. Bakı şəhərində yeni tikilmiş, arxitektura baxımından cəlbedici olan bəzi binaların memarlıq dizaynı Koreya şirkətləri tərəfindən təmin edilib:"Şadam ki, Koreyadan Azərbaycana gələn turistlərin də sayı artır... Bilirəm, koreyalılar xarici ölkələrə səfər etməyə çox həvəslidirlər və ümid edirəm ki, Azərbaycan onlar üçün çox maraqlı bir yer ola bilər.

Əlbəttə, parlamentlərarası əlaqələrə xüsusi diqqət yetirilir".

Koreya Respublikası Milli Assambleyasının sədri Mun Hi-sanq isə deyib ki, bildiyimə görə, Siz oktyabr ayında Rusiyada olmusunuz, Gürcüstanın Baş naziri Azərbaycana səfərə gəlib və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü Azərbaycanda keçirilib. Mənə çox maraqlıdır, Sizin bu tükənməz enerjiniz haradan gəlir? Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında Macarıstan və başqa bir ölkə sadəcə müşahidəçidir, üzv deyil. Mən düşünürəm ki, bizim də təşkilata müşahidəçi kimi üzv ola bilmək imkanımız var. Ola bilərikmi?

Prezident İlham Əliyev: Çox yaxşı olar. Mən elə bu məsələni sizinlə müzakirə etmək istərdim.

Milli Assambleyanın sədri Mun Hi-sanq: Çox istərdim həyata keçsin.

Prezident İlham Əliyev: Ona görə, əgər belədirsə, onda gərək səfər zamanı bu məsələ müzakirə olunsun. Gələn il Türkiyədə keçiriləcək növbəti Zirvə Görüşündə Koreya əgər müşahidəçi qismində iştirak edərsə, biz çox məmnun olarıq. Macarıstan müşahidəçi kimi bizim tədbirlərdə artıq ikinci dəfədir ki, iştirak edir. Bu, onu göstərir ki, bu təşkilat yeni üzvləri, müşahidəçi qismində iştirak edən yeni ölkələri qəbul etməyə çox böyük maraq göstərir.



Dünənki Zirvə Görüşündə həm qarşılıqlı siyasi dəstək göstərildi, eyni zamanda, iqtisadi sahədə bir çox önəmli layihələr müzakirə olundu. Ona görə xahiş edirəm, siz bu məsələni ciddi müzakirə edəsiniz və ümidvaram ki, nəticələr yaxşı olacaq.

Milli Assambleyanın sədri Mun Hi-sanq: Mən əminəm ki, uğurlu nəticə əldə olunacaq. Çünki Ural-Altay mədəniyyətinə həmişə ailəyə çox böyük önəm verib, böyükləri hər zaman özlərindən yüksəkdə tutublar. Buna görə də inanıram ki, biz eyni mədəniyyətə daxilik və bu əməkdaşlığımız uğurla nəticələnəcək.

## MQ həmsədrləri niyə hər dəfə region səfərini Ermənistan və qondarma "DQR"dən başlayır...

*AR XİN-in Mətbuat xidməti idarəsinin rəisi L.Abdullayeva KİV-in sualını cavablandırıb*

**Bölgəyə səfər edən ATƏT-in Minsk Qrupu həmsədrlərinin marşrutu Yerevandan Qarabağa və yalnız ondan sonra Bakıya keçir. Bu, münaqişənin hər iki tərəfi ilə razılaşdırılıbmı? Yoxsa o, həmsədrlərin özlərinin qərarıdır və Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik kimi qiymətləndirilə bilər?**

Bildiyiniz kimi, ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün vasitəçilik fəaliyyətlərini mövcud mandat əsasında həyata keçirirlər və həmin mandata dair Azərbaycan tərəfinin də razılığı vardır. ATƏT-in Minsk Qrupu həmsədrlərinin hazırkı səfəri bu mandatın icrası çərçivəsində onların regionumuza növbəti gəlişidir. Qeyd etmək istərdik ki, həmsədrlər səfərlərini həyata keçirərkən, ənənəvi olaraq, Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin həm erməni, həm də azərbaycanlı icmaları ilə əlaqə saxlayır. Bu cür səfərlər bundan əvvəl də dəfələrlə həyata keçirilmiş və tərəfimizdən münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycan Respublikasının ərazi bütövlüyünə riayət edilməsi çərçivəsində həll edilməsi istiqamətində görülən işlər kimi qiymətləndirilir.

# Ramil Usubov Özbəkistanın Təhlükəsizlik Şurasının katibi ilə görüşüb

**Oktyabrın 14-də Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi Ramil Usubov ölkəmizdə səfərdə olan Özbəkistan Respublikası Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Viktor Mahmudovla görüşüb.**

Baki-xeber.com xəbər verir ki, görüşdə dövlət başçıları İlham Əliyevin və Şavkat Mirziyoyevin siyasi iradələrinə uyğun olaraq ölkələrimiz arasında strateji tərəfdaşlığın ən müxtəlif sahələr üzrə inkişaf etdiyi və əməkdaşlığın genişləndiyi qeyd edilib.



Söhbət zamanı beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığın yeni çağırış və təhdidlərinin artaraq qlobal xarakter aldığı, ekstremizmi, aqressiv separatizmi təbliğ edən radikal elementlərin vaxtında müəyyənləşdirilməsi və qanunsuz fəaliyyətlərinin qarşısının alınması istiqamətində hər iki dövlətin müvafiq orqanlarının əməkdaşlığının önəmi vurğulanıb.

# Türk Şurası ölkələri Xəzərdə daşımalar üçün birgə şirkət yarada bilər

**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) ölkələri Transxəzər Beynəlxalq Şərq-Qərb Ticarət və Nəqliyyat dəhlizinin səmərəliliyinin artırılması məqsədilə Xəzərdə daşımalar üçün birgə gəmiçilik şirkəti yaratmağı planlaşdırır.**

Baki-xeber.com İnterfax-a istinadən xəbər verir ki, bunu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) baş katibi Bağdad Amreyev deyib.





"Transxəzər Beynəlxalq Şərq-Qərb Ticarət və Nəqliyyat dəhlizinin səmərəli marşruta çevrilməsi məqsədilə nəqliyyat və gömrük sahəsində optimal və əlverişli şərtlərin formalaşmasını gündəliyə çıxarırıq. Dəhliz boyu logistika xərclərini azaldaraq nəqliyyat və gömrük sektorunun operativliyini artırmaq çox vacibdir. Bunun üçün Xəzər üzrə birgə gəmiçilik şirkətinin yaradılmasının müzakirəsini planlaşdırırıq", - Amreyev "İnterfaks-Azərbaycan"a bildirib.

O qeyd edib ki, təşkilata üzv ölkələr Türk Şurasının formalaşmasını başa çatdıraraq növbəti mərhələyə keçirlər. Burada TDƏŞ-in fəxri sədri Nursultan Nazarbayevin "Türk baxışı -2040" proqramının hazırlanması təklifi gündəlikdə durur. "Bununla əlaqədar, TDƏŞ-in katibliyi tərəfindən təşkilatın perspektivlərini müəyyən edən "Türk Şurası-2023" yeni strategiyası hazırlanır. Tərəflərin təkliflərini sənədə daxil edərək onu gələn sammitdə (2020-ci ildə Türkiyədə - İF) təqdim edəcəyik", - o qeyd edib.

Amreyevin sözlərinə görə, gələcək əməkdaşlıq mərhələsi iqtisadi əməkdaşlığın ən vacib sahələrində yeni prinsip və yanaşmalar tələb edə bilər. "Azad ticarətin stimullaşdırılması strategiyası və ya ticarətin inkişafı çərçivəsində üzv ölkələri arasında preferensial sazişlərin imzalanması məsələləri gündəliyə çıxarıla bilər. İqtisadi əməkdaşlığın möhkəmlənməsi, ticarət və qarşılıqlı investisiyaların təşviqi, həmçinin orta və kiçik biznesin dəstəklənməsi üçün optimal maliyyə alətləri lazımdır", - o qeyd edib.

"Qlobal arenada vacib yer tutan türk dünyasının yaxın 10 il ərzində nüfuzlu, güclü və vahid birliyə çevrilməsi üçün ruh yüksəkliyi ilə çalışırıq", - Amreyev əlavə edib.





## Respublika Xatirə Kitabının baş redaktoru Nəzakət Məmmədova Rusiyanın Qələbənin varisləri döş nişanı və Həzi Aslanov yubiley medalı ilə təltif edildi

**Bakıda "Xalqların birliyi faşizm üzərində qələbədə və sülhün qorunmasında əsas amil kimi" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Baki-xeber.com xəbər verir ki, konfransda Respublika Xatirə Kitabının baş redaktoru Nəzakət Məmmədova RF-in Qələbənin varisləri döş nişanı və General Həzi Aslanov yubiley medalı ilə təltif edilib.

**"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazova bacısının vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!**

# Türkdilli dövlətlərin onillik inteqrasiya prosesində Azərbaycanın rolu - Prezident konkret istiqamətlər göstərdi...

**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Bakıda keçirilən VII Zirvə görüşü bir neçə cəhətdən əlamətdar oldu. Bakı sammiti Türk Şurasının getdikcə gücləndiyini, nüfuzlu quruma çevrildiyini bir daha təsdiqlədi.**



## *Elman Nəsirov: "Azərbaycan türkdilli ölkələr arasında inteqrasiya prosesində çox mühüm rol oynayır"*

Sammitin gedişində aydın oldu ki, qurum türkdilli ölkələr arasında iqtisadi, siyasi, nəqliyyat-logistika, humanitar, mədəni və digər sahələrdə münasibətlərin daha da dərinləşməsində mühüm rol oynayır.

Ötən on ildə sözügedən ölkələrin inteqrasiyası ilə bağlı bir sıra işlər görülüb. Prezident İlham Əliyev tədbirdə çıxışında bununla bağlı çox önəmli məqamlara toxunub: "Ötən on il ərzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bir təşkilat kimi əhəmiyyətli inkişaf yolu keçib. Şura ölkələrimiz arasında siyasi, iqtisadi, nəqliyyat, humanitar, turizm, informasiya və kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın inkişafında mühüm rol oynayır. Türk Şurasının mötəbər beynəlxalq təşkilatlarla əlaqələri genişlənir. Hazırda BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi qurumlarla səmərəli əməkdaşlıq mövcuddur. TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyası zəngin mədəni irsimizin tədqiqi, maddi və mənəvi dəyərlərimizin dünya səviyyəsində təbliğində əhəmiyyətli rol oynayır".

Görünən odur ki, ötən 10 ildə türk ölkələri böyük inteqrasiya yolu keçiblər. Bu istiqamətdə bir sıra işlər görülüb. Ümumilikdə, Azərbaycan bu işdə hansı rolu oynayıb?

Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirovun sözlərinə görə, Azərbaycanın türkdilli ölkələrin inteqrasiyasında rolu böyükdür: "Azərbaycan türkdilli ölkələr arasında inteqrasiya prosesində çox mühüm rol oynayır. Ötən 10 il ərzində Azərbaycan bu yöndə böyük işlər görüb. Çünki Azərbaycanın bununla bağlı siyasi, iqtisadi, tranzit potensialı, diplomatik imkanları böyükdür. Humanitar sahədəki imkanları çox genişdir. Nəzərə almaq lazımdır ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunduğu məkan da Azərbaycandır. Sözügedən qurum 2009-cu ildə Naxçıvan şəhərində təsis edilib. O vaxtdan artıq 10 il keçib və Bakı yubiley sammitinə evsahibliyi etdi. Eyni zamanda, türkdilli dövlətlər arasında əməkdaşlığın möhkəmləndirilməsi və inteqrasiya proseslərinin sürətləndirilməsi sahəsində növbəti həlledici addım atıldı. Artıq Özbəkistan da bura daxil oldu. Türkmənistanın da analoji addım atacağı gözlənir. Bütün bunlar onu təsdiqləyir ki, Türk Şurasının cəlbedicilik əmsalı kifayət qədər böyükdür. Prezident İlham Əliyev tədbirdəki çıxışında bəyan etdi ki, Azərbaycan bu günləri dünyada multikultural dəyərləri paylaşır. Birgəyaşayış mədəniyyətini ixrac edir. Millətlər arasında sülh və barışıq istiqamətində çox mühüm işlər görür. Bu məsələdə bir nümunədir. Təbii ki, bütün bunlar, nəticə etibarilə, Türk Şurası daxilində əməkdaşlıq mühitinin inkişafı üçün geniş imkanlar açır. İqtisadi-ticarət, humanitar, mədəniyyət və digər sahələrdə əməkdaşlığın daha geniş perspektivləri var".

*"Bütün bunlar, nəticə etibarilə, Türk Şurası daxilində əməkdaşlıq mühitinin inkişafı üçün geniş imkanlar açır"*

***Vidadi ORDAHALLI***

# Azərbaycanın sədrliyi türk dövlətlərinin inteqrasiyasına daha nələr verəcək...

**Bütün zamanlarda türkoloji düşüncənin əsas mərkəzlərindən olan Azərbaycan türk xalqlarının birliyi naminə bir sıra uğurlu işlər həyata keçirib. Bu gün Azərbaycan dövləti türkdilli dövlətlərin birliyi naminə keçirilən bir sıra tədbirlərə evsahibliyi edir.**



Bildiyimiz kimi, Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) VII Zirvə toplantısı keçirildi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) sədrlik Qırğızıstan Respublikasından Azərbaycana keçib. Bunu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) Xarici İşlər Nazirləri Şurasının toplantısında Qırğızıstan Respublikasının xarici işlər naziri Çingiz Aydarbekov deyib: "Türk Şurasına sədrlik Naxçıvan sazişinin 10-cu ildönümündə Qırğızıstandan Azərbaycana keçir".

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) sədrliyin Azərbaycana keçməsi nəticəsində Azərbaycan bu sahəyə hansı töhfələr vermək gücündədir?

Millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, ölkəmiz indiyə qədər türk birliyi naminə bir sıra layihələr həyata keçirib, bu istiqamətdə toplantılara evsahibliyi edib. F.Quliyev hesab edir ki, Azərbaycan bu sahəyə kifayət qədər töhfə verib və bundan sonra da töhfələr vermək iqtidarındadır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasınının (Türk Şurası) ilk toplantısının Naxçıvanda keçirildiyini xatırladan F.Quliyevin sözlərinə görə, Azərbaycan bu şuraya uğurla sədrlik edəcək.

O, əlavə etdi ki, bu layihədə hansısa dövlətin nə qədər səy göstərməsi önəmli deyil, əsas bu layihənin uğurla baş tutmasdır. "Çünki türk etnosunun qurduğu bir neçə cümhuriyyət öz təhlükəsizliyini və inkişafını bu layihəyə bağlayıb, hər kəs də əlini daşın altına salıb. Bu, bir dövlətin işi deyil ki, məsuliyyət yalnız onun üzərinə düşsün və hər şey ondan asılı olsun. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) hansı dövlətin sədrlik etməsindən asılı olmayaraq, bütün türk cümhuriyyətləri bu məsuliyyəti bölüşürlər, bu onların hər birinin fəaliyyətindən asılıdır. Ancaq Azərbaycanın, təbii ki, bu sahədə çox ciddi təcrübəsi var və ölkəmiz həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərdə səmərəli əməkdaşlıq edən tərəf kimi özünü təsdiqləyib. Bizim ölkədən dəfələrlə bu istiqamətdə təşəbbüslər olub. Bilirsiniz ki, bu məsələ ilə bağlı ilk toplantı da Azərbaycanda, Naxçıvanda keçirilib. Tərəfimizdən də həmişə belə fikirlər səsləndirilib ki, bu inteqrasiya dərin olmalıdır. Bu istiqamətdə Azərbaycan cəmiyyəti tərəfindən çox fikir səsləndirilib. Üstəlik də Azərbaycan rəhbərliyinin də iradəsi odur ki, biz, birmənalı şəkildə, bütün imkanlarımızı səfərbər etməliyik. Türkiyədə zəlzələ olanda Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin əməkdaşları qardaş ölkənin çağırışını gözləməyib artıq hadisə yerində idilər. Başqa məsələlərdə də Azərbaycan həmişə ortaya iradə qoyub. "Barış pınarı" əməliyyatında da Azərbaycan tərəfinin mövqeyi onu göstərdi ki, ölkəmiz bu məsələdə çox maraqlıdır. Ona görə maraqlıdır ki, Azərbaycan ərazisini, daha dəqiq desək, Zəngəzuru ələ keçirmək vasitəsilə Türk dünyasının coğrafi mənada birliyini sındıra biliblər. Azərbaycan bu məsələdə əziyyət çəkən tərəfdir. Ermənilərin Türkiyəyə qarşı qondarma soyqırım iddiasını qaldırmasının, Qarabağ ərazisinin işğal olunmasının kökündə türk etnosunun qurduğu cümhuriyyətlərin mütəşəkkil şəkildə bir yerdə ola bilməməsi dayanıb. Hesab edirəm ki, Azərbaycan məsələlərin mədəni-iqtisadi səviyyədən siyasi müstəviyə keçməsində maraqlıdır. Ölkəmiz beynəlxalq tədbirlərin keçirilməsi, beynəlxalq məsələlərdə və əməkdaşlıqda aparıcı rolda çıxış etmək təcrübəsinə malikdir. Fikrimcə, Azərbaycanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) sədrliyi dönəmində daha ciddi nəticə əldə etmək imkanları var" - deyə F.Quliyev vurğuladı.

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, cari ilin 11 oktyabr tarixində Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejim tərəfindən təşkil olunan məlum tədbirdə Rusiya Federasiyasının Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və soydaşlarla əlaqələr komitəsi sədrinin birinci müavini Konstantin Zatulinin iştirakı ilə əlaqədar Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinə Azərbaycan tərəfinin narahatlığını ifadə edən rəsmi nota göndərilib.**

# Dərinləşən Rusiya-Azərbaycan münasibətlərinə qarşı "Zatulin" təxribatı...

## *Məhəmməd Əsədullazadə: "Bu, birbaşa erməni lobbisinin Rusiya-Azərbaycan əlaqələrinə kölgə salmaq siyasətinin tərkib hissəsidir"*



Azərbaycanın Rusiyadakı səfirliyinin yaydığı məlumata görə, notada separatçılığı açıq şəkildə dəstəkləyən Konstantin Zatulinin qeyd edilən tədbirdə ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı səsləndirdiyi növbəti təxribat xarakterli bəyanatlarına və Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mövcud olan yüksək səviyyəli əməkdaşlığa xələl gətirən çıxışlarına Rusiya tərəfindən münasibətin bildirilməsi, həmçinin, rusiyalı deputatın işğal altında olan ərazilərə hansı qismdə səfər etməsi və sözügedən səfərin kimin tərəfindən maliyyələşdirilməsi ilə bağlı məlumatın dəqiqləşdirilməsi xahiş edilib.

Bundan əlavə, notada K.Zatulinin mütəmadi şəkildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Rusiyanın siyasi mövqeyinə zidd olan fikirlər irəli sürməsinə, tarixi faktları açıq şəkildə təhrif etməsinə, Ermənistanın apardığı işğalçı siyasətə bəraət qazandırmaq cəhdlərinə müvafiq qiymətin verilməsinin vacibliyi vurğulanıb, onun bir deputat kimi öz sözlərinə və hərəkətlərinə görə məsuliyyət daşımalı olduğuna diqqət çəkilərək, Rusiya Xarici İşlər Nazirliyindən lazımi tədbirlərin görülməsi rica edilib.

O da məlumdur ki, son illər Rusiya-Azərbaycan münasibətlərində ciddi yaxınlaşma müşahidə edilir. İki ölkə arasında bütün sahələrdə əlaqələr inkişaf edir, dərinləşir. Aydın məsələdir ki, Ermənistan Rusiya-Azərbaycan münasibətlərinin inkişafından və bu istiqamətdə gedən proseslərdən çox narahatdır. İki ölkə arasında müşahidə edilən bu yaxınlaşmanı həzm edə bilmir və bunu pozmaq üçün müxtəlif təxribatlara əl atır. O cümlədən, Rusiyada ermənilərin mövqeyindən çıxış edən müəyyən dairələr münasibətlərə kölgə salmaq istəyirlər.

Bu baxımdan Zatulinin Dağlıq Qarabağa qanunsuz səfəri, orada səsləndirdiyi fikirlər Rusiya-Azərbaycan yaxınlaşmasını pozmaq üçün təxribat ola bilərmi?

*"Kreml iki dövlətin qonşuluq əlaqələrinə qiymət verərək ölkəmizin ərazi bütövlüyünə qarşı bu kimi təxribatlara icazə verməməlidir"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Qarabağda separatçı qurumun keçirdiyi tədbirdə Rusiya Dumasının deputatı K.Zatulinin iştirakı və ölkəmiz əleyhinə bəyanatları birbaşa erməni lobbisinin Rusiya-Azərbaycan əlaqələrinə kölgə salmaq siyasətinin tərkib hissəsidir: "Minsk Qrupunun həmsədri kimi Rusiyanın münaqişə zonasına deputatının gəlişi və digər tərəfə qarşı ədalətsiz mövqeyi Kremlin vasitəçiliyinə kölgə salmış oldu. Ermənistan daim ölkəmiz əleyhinə Rusiya faktorundan yararlanmağa çalışır. Bu məqsədlə bu kimi təxribatlara əl atır. Zatulin Rusiyada erməni lobbisinin əsas dayaqlarından biridir. Azərbaycanın mövqeyi Rusiya Dumasına çatdırıldı. Hesab edirəm ki, Kreml iki dövlətin qonşuluq əlaqələrinə qiymət verərək ölkəmizin ərazi bütövlüyünə qarşı bu kimi təxribatlara icazə verməməlidir. Belə səfərlər ikitərəfli əlaqələrə kölgə salmış olur. Rusiyanın regionda strateji maraqlarını nəzərə alsaq, ermənilər bununla Kremlin region siyasətinə qarşı gəlmiş olurlar. Çünki Rusiya Azərbaycanla əlaqələrə önəm verir. Hazırda Rusiyada bir sıra dairələr Ermənistanın maraqlarının qorunması istiqamətində işlər aparırlar. Hesab edirəm ki, Azərbaycanın mövqeyi qəti şəkildə Moskva tərəfindən nəzərə alınacaq. Artıq 10 il bundan əvvəlki dövr deyil ki, Azərbaycanın maraqları nəzərə alınmaya. Hazırda kifayət qədər siyasi cəhətdən möhkəmlənərək, regionda öz şərtlərimizi diktə edə bilirik. Məhz bu kontekstdə Ermənistanın bütün təxribatlarının qarşısını almaq olar".

***Vidadi ORDAHALLI***

---

**Türkiyənin Suriyada ABŞ-ın müttəfiq kimi gördüyü PKK/PYD-YPG terrorçularına qarşı başlatdığı "Barış Pınarı" (Sülh bulağı) əməliyyatı və ardınca sanksiya təhdidləri Ankara-Vaşinqton xəttində gərginliyi getdikcə daha da artırır.**

# ABŞ Türkiyənin "İncirlik" bazasındakı nüvə silahlarını çıxarır - iki NATO ölkəsi arasında görünməmiş gərginlik...

## *PKK nəzarətində olan bölgələrə sürətlə Əsəd qüvvələrini yerləşdirir*



Baki-xeber.com xəbər verir ki, "New York Times" qəzetinin yaydığı bir xəbər isə iki ölkə arasında gərginliyin nə qədər ciddi olduğunu bir daha ortaya qoyur.

Qəzetin iddiasına görə, ABŞ rəsmiləri "İncirlik" hərbi hava bazasındakı təxminən 50 nüvə silahını Türkiyədən çıxarmağa hazırlaşır. "Tramp Suriyada instinktlərinə güvəndi, fəlakət sürətlə gəldi" başlıqlı yazıda iki ABŞ rəsmisinə istinadən qeyd edilir ki, Vaşinqton "İncirlik"dəki təxminən 50 nüvə silahını bu ölkədən çıxarmaq planı üzərində işləyir. Xəbərdə bu silahların "İncirlik"dən çıxarılması Türkiyə ilə ABŞ arasındakı müttəfiqlik münasibətlərinin "rəsmən bitməsi" mənasına gələcəyi kimi şərh edilir.

Adı açıqlanmayan yüksək rütbəli ABŞ rəsmisi "İncirlik"dəki nüvə silahları ilə bağlı "indi onlar Ərdoğanın girovudur" ifadəsini işlədib.

Qəzet sonda Ərdoğanın bir ay əvvəl "Bəzilərinin əlində nüvə başlıqlı raket var, amma mənim əlimdə nüvə başlıqlı raket olmasın! Mən bunu qəbul etmirəm" açıqlamasını xatırladaraq Türkiyənin də nüvə silahlarına sahib olmaq istəyində olduğunu yazıb.

Qeyd edək ki, Türkiyənin 3 naziri və iki nazirliyinə sanksiya tətbiq edən ABŞ Suriyanın şimalında Türkiyə ordusunun "Barış Pınarı" (Sülh bulağı) əməliyyatının əsas hədəfində olan Menbiç bölgəsini Rusiya və Suriya ordusuna verərək əsgərlərini geri çəkib. Menbiç hazırda Rusiya və Suriya ordusunun nəzarətindədir. Moskva bölgədəki rus ordusunun Menbiçdəki vəziyyətlə bağlı Türkiyə ordusu ilə əlaqədə olduğunu bildirib. Suriya ordusunun isə Türkiyənin hücumlarının qarşısını almaq üçün Menbiç ətrafında yerləşdirildiyi bildirilir.

Münbiçi gündəmə gətirən xəbərlərdən biri də YPG-nin əsasını təşkil etdiyi Suriya Demokratik Qüvvələri (SDQ) ilə Əsəd rejim arasında razılaşması iddiasıdır. SDQ-nin, Münbiç və Kobani də daxil olmaqla, nəzarət etdiyi bölgələrə rejim qüvvələrini çağırdığı iddia edilir. Artıq qeyd edildiyi kimi, rejimə aid qüvvələr Münbiçdə nəzarəti ələ keçirib. Türk təhlükəsizlik qüvvələri də, rejim qüvvələrinin Münbiçin cənubunda yerləşdirildiyini deyir.

SDQ ilə Dəməşq rəhbərliyinin tarazlıqda razılaşdıqları iddiası ilə yaradılan fəaliyyət

Fəratın şərqində də hərəkətlilik müşahidə edilir. Əsəd qüvvələrinin Hasekeyə girdikləri və şəhərin şimal-qərbindəki Tel Tamerə yerləşdirildiyinə dair də xəbərlər yayılıb. Rejim qoşunlarının Raqqanın şimalındakı Ayn İsaya da girdikləri iddia edilir.

Qeyd edilir ki, Kamıslının bütün məktəblərində və hökumət idarələrində PYD/YPG bayrağı endirilib və Suriya bayrağı qaldırılıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rejimin Münbiçə girməsi, YPG ilə razılaşdığına dair xəbərlərə münasibət bildirib: "Biz, xüsusilə Münbiçdə olmalıyıq demirik, belə bir problemimiz yoxdur. Bizim yalnız bir problemimiz var, ya Rusiya, ya da rejim, terror təşkilatı YPG/PYD-ni buradan çıxsın. Rejimin YPG ilə razılaşdığını düşünmürəm".

Ərdoğan başqa bir açıqlamasında isə deyib: "Münbiçdə rejimin olması mənim üçün çox da mənfi hal deyil. O, ərazilər onların öz torpaqlarıdır. Ancaq burada terror təşkilatlarının olmaması mənim üçün çox önəmlidir. Yəni bizim onlara söylədiyimiz "YPG/PYD burada qalacaq ya yox?" Putinə də bunu dedim. Əgər Münbiçi terror təşkilatlarından təmizləyirsinizsə, buyurun buranın bütün təhlükəsizliyini təmin edin və ya rejim etsin. Ancaq bunu belə etməyəcəksinizsə, oradakı qəbilələr bizə "gəlin bizi xilas edin" deyirlər. Çünki Münbiçin 85-90 faizi ərəblərdir. Kürdlər deyil. Ancaq bu günə qədər bunun cavabını nə Putindən almışıq, nə də rejimdən".

# Türk dövlətlərinin inteqrasiyasında Naxçıvan mərhələsini simvollaşdıran tarix - Prezidentin təhlilinə mütəxəssislər qoşuldu

***Məhərrəm Zülfüqarlı:*** *"...Naxçıvanda ən yeni tarixi mərhələnin əsası qoyuldu"*

***Fəzail İbrahimli:*** *"Vaxtilə Avrasiyada, iki qitə arasında vahid türk xətti mövcud idi"*



**Zaman-zaman müxtəlif qüvvələr, imperiyalar türk xalqları arasındakı mövcud bağları sarsıtmağa, zədələməyə çalışsalar da, tam olaraq buna nail ola bilməyiblər. Milli, tarixi, mədəni və mənəvi baxımdan ayrılmaz qüvvə olan türk etnosu bu gün ayrı-ayrı cümhuriyyətlər formasında həm öz mövcudluqlarını qoruyur, həm də bir-birilə müxtəlif istiqamətlərdə əlaqələri möhkəmləndirirlər.**

Bu gün türkdilli xalqların, dövlətlərin inteqrasiyasında önəmli olan türk dövlətləri, şəhərləri, şəxsiyyətləri var ki, onlar bu mühüm birliyi yenidən bərpa ediblər.

Məlum olduğu kimi, oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçirildi.

Onu da vurğulayaq ki, sözügedən şura 2009-cu ildə Naxçıvanda təsis edilib və şuranın fəaliyyəti bu məkandan start götürüb. Sözsüz ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Azərbaycanın evsahibliyi ilə yaradılması tariximizdə mühüm bir mərhələnin başlanğıcını xarakterizə edir.

Türk Şurasının VII Zirvə görüşündə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuranın yaradılması tarixinə xüsusi diqqət çəkib: "Türk Şurasının VII Zirvə görüşü Naxçıvan Sazişinin imzalanmasının onuncu ildönümünə təsadüf edir. 2009-cu ilin oktyabrında dövlət başçılarının Azərbaycanın qədim şəhəri Naxçıvanda keçirilmiş Zirvə görüşündə ölkələrimiz arasında əməkdaşlığın təsisatlanmış yeni formatı yaradıldı. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasında Zəngəzur yerləşir. Vaxtilə Zəngəzur bölgəsinin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi böyük Türk dünyasını coğrafi baxımdan parçaladı. Ancaq Naxçıvanda qəbul etdiyimiz qərarlarla və birgə işimizlə biz Türk dünyasının birliyini daha da gücləndirdik və qardaşlığımızı davam etdiririk. Bu mənada Türk Şurasının yaradılmasına dair qərarın məhz Naxçıvanda keçirilmiş Zirvə görüşündə qəbul edilməsi Türk dünyası üçün böyük rəmzi əhəmiyyətə də malikdir".

Türk dövlətlərinin inteqrasiyasında Naxçıvan mərhələsini simvollaşdıran tarixi mərhələnin bütün Türk dünyası üçün yeni nəfəslik açdığını deyən tarixçi-alim, professor Məhərrəm Zülfüqarlı hesab edir ki, bu şuranın Naxçıvanda təsis edilməsi təsadüfi deyildi. M.Zülfüqarlı hesab edir ki, Türk dünyası üçün böyük əhəmiyyət daşıyan Naxçıvanda türk dövlətləri başçıları tərəfindən belə şuranın yaradılması türk dövlətlərinin, xalqlarının inteqrasiyasını simvollaşdıran bir tarix kimi xarakterizə edilməlidir. "Ümumiyyətlə, bu şuranın Azərbaycanda, Naxçıvanda təsis edilməsi, yaradılması təsadüfi deyildi, bu, birbaşa türk xalqlarının, dövlətlərinin inteqrasiyasını sürətləndirməyə xidmət edən bir hadisə idi. Onu da bildirim ki, türkdilli xalqlar və dövlətlər arasında inteqarsiyanın daha da dərinləşdirilməsi, əlaqələrin möhkəmləndirilməsi üçün həmin ərəfədə Naxçıvanda Türk Xalqlarının Akademiyası yaradılıb. Bu akademiyanın əsas məqsədi Orxon-Yensey, Monqolustan ərazisindəki qədim türk mədəniyyətini, tarixi-mədəni irsini öyrənmək olub. Demək istəyirəm ki, türk xalqlarının inteqrasiyasının sürətlənməsində, bu birliyə nail olmağımızda Azərbaycanın, Naxçıvanın adının xüsusi keçməsi bizim üçün çox böyük əhəmiyyətə malikdir. Çünki Türk dünyasını birləşdirən, bir-birinə yaxın edən şəhər kimi Naxçıvanın rolu böyükdür. Uzun illər türk xalqlarının, dövlətlərinin bir-birindən ayrı düşməsinin müxtəlif səbəbləri olub, bir tərəfdən Sovet hökuməti buna mane olub, digər tərəfdən, Türkiyə NATO-nun üzvü olub, Azərbaycan Varşava müqaviləsində olub. Amma bir məsələ var ki, daim Naxçıvan erməni separatizminin hədəflərindən biri olub. Yəni ermənilər Dağlıq Qarabağ kimi, Naxçıvan haqqında da təxribatçı fikirlər, qondarma iddialar irəli sürüblər. Bu baxımdan, Naxçıvanın mərkəz olması, Türk dünyasını birləşdirməsi, türk xalqları ilə bağlı toplantıların orada keçirilməsi, bu barədə razılıq əldə edilməsi, Türkdilli xalqların Akademiyasının burada formalaşması mühüm əhəmiyyət daşıyır".

M.Zülfüqarlı hesab edir ki, on il əvvəl Naxçıvanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması, əslində, türk xalqlarının, dövlətlərinin inteqrasiyası sahəsində atılan ilk addımlardan biridir. "Həmin dövrdə türk xalqları və dövlətləri arasında əlaqələr yenidən bərpa edildi və türk xalqlarının birliyi, inteqrasiyası baxımından Naxçıvanda ən yeni tarixi mərhələnin əsası qoyuldu. Burada yalnız dövlət başçıları, siyasətçilər, parlamentarilər səviyyəsində işlər görülmədi, həm də Türk Akademiyasının timsalında alimlər səviyyəsində işlər həyata keçirilməyə başladı. Bu akademiyada türk xalqlarının tarixinin, mədəniyyətinin öyrənilməsi həyata keçirilir və bu proses indi də davam edir. Onu da deyim ki, belə bir mühüm təsisatın meydana gəlməsində Naxçıvanın adının olmasının xüsusi siyasi əhəmiyyəti var. Bununla da Naxçıvanın Türk dünyasını birləşdirən qədim türk torpağı olduğunu bir daha dünyaya bəyan edirik" - deyə M.Zülfüqarlı qeyd etdi.

Millət vəkili, tarixçi-alim, professor Fəzail İbrahimli də hesab edir ki, bu şuranın Azərbaycanda təsis edilməsinin və türk xalqlarının inteqrasiyasının yeni mərhələsinin Naxçıvanda əsasının qoyulmasının böyük tarixi və siyasi əhəmiyyəti var: "Bu şuranın təsis edilməsi barədə razılığa gəlinməsi ilə bağlı toplantının Naxçıvanda keçirilməsi nəzərdə tutulub və keçirilib də. Prezident çıxışında Zəngəzurun ermənilərə verilməsini və quru sərhədlərimizin əlimizdən alınmasını, bununla da türk xəttinin qırılması məsələsini də gündəmə gətirdi. Vaxtilə Avrasiyada, iki qitə arasında vahid türk xətti mövcud idi. Sibirdən, Altaydan başlanan xətt gəlib Orta Asiyaya çıxırdı. Bu xətt qırıla-qırıla gəlib Zəngəzura çatdı və Zəngəzur o qırılan xəttin son həlqəsidir. Açıq şəkildə deyildi ki, Zəngəzurun ermənilərə verilməsi türk dövlətləri arasında quru xəttin kəsilməsinə gətirib çıxardı. Bu, yüzillərlə böyük geosiyasi güclərin, iri dünya dövlətlərinin planlaşdırdığı məsələ idi. Vaxtilə Orenburqu Qazaxıstandan ayırdılar, Rusiya tərkibində olan türk xalqları assimilyasiya və tabe edildi. Sonra da Azərbaycan ərazisində erməni dövləti yaratdılar, Zəngəzuru da götürüb onlara verməklə minillər boyu davam edən türk xəttinin son həlqəsi də qırıldı. Bu, ümumiyyətlə, Türk dünyasının əlaqələrinin qırılmasına rəvac verən addım idi. Bu vacib məsələ yenidən Azərbaycan Respublikasının Prezidenti tərəfindən gündəmə gətirildi. Hesab edirəm ki, əsası Azərbaycanda, Naxçıvanda qoyulan türk dövlətlərinin, xalqlarının birliyi, inteqrasiyası gələcəkdə dünya siyasətində öz sözünü deyəcək. Çünki artıq öz iqtisadi, siyasi gücü ilə mövcud olan türk dövlətləri bir araya gəlib və sarsılmaz birliyə nail oldular. Fikrimcə, Türkiyə, Azərbaycan, Qazaxıstan kimi güclü, qüdrətli dövlətlər, eləcə də digər türk dövlətlərinin birgə səyləri türkün qüdrətini və türk siyasətini dünyada gücə çevirə biləcək. Əsası Naxçıvanda qoyulan bu tarixi hadisə həm də ona görə diqqət çəkir ki, həmin dövrdə düşmənin göz dikdiyi bir Azərbaycan yurdunda türk dövlətləri birləşərək düşmən qarşısında sipər kimi göründülər. Türk dövlətləri başçılarının birliyi həm düşmənlərimizə, həm də bütün dünyaya bir mesaj idi ki, Naxçıvan qədim türk torpağıdır".

F.İbrahimli hesab edir ki, bu gün türk dövlətlərinin inteqrasiyası, birliyi naminə belə toplantıların keçirilməsi, eyni zamanda, Türk dünyasına qarşı düşmənçilik siyasəti aparan dövlətlərə, qüvvələrə də bir mesajdır.

***İradə SARIYEVA***

# Türkdilli ölkələrin dünya bazarlarına çıxışında Azərbaycanın tranzit imkanları...

**"Azərbaycan etibarlı tranzit ölkəsi olaraq türkdilli ölkələrin dünya bazarlarına çıxışı üçün səylərini davam etdirir". Bu fikirləri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə çıxışı zamanı Prezident İlham Əliyev səsləndirib.**




## *Azər Allahverənov: "Azərbaycanın tranzit ölkə olaraq türkdilli ölkələrin dünya bazarlarına çıxışında rolu daha da artacaq"*

Dövlət başçısının sözlərinə görə, tarixən qədim İpək Yolu üzərində yerləşən ölkələrimiz arasında nəqliyyat sahəsində əməkdaşlıq əsas istiqamətlərdən biridir: "Azərbaycan Şərq-Qərb Nəqliyyat Dəhlizinin fəal iştirakçılarından biridir. 2017-ci ilin oktyabrında istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu tarixi İpək Yolunun bərpasına müştərək töhfəmizdir. Beynəlxalq Bakı Dəniz Limanı 15 milyon ton yük və 100 min konteyner yükaşırma qabiliyyətinə malikdir. Ehtiyac olduğu təqdirdə yükaşırma qabiliyyəti 25 milyon ton yük və 1 milyon konteynerə kimi artırıla bilər. Azərbaycan etibarlı tranzit ölkəsi olaraq türkdilli ölkələrin dünya bazarlarına çıxışı üçün səylərini davam etdirir. 2018-ci ildə türkdilli ölkələrdən 8 milyon ton yük Azərbaycan vasitəsilə daşınıb. Biz enerji sahəsində əməkdaşlığa böyük əhəmiyyət veririk. Azərbaycan bu sahədə də öz imkanlarını təqdim edir. Mərkəzi Asiyadan olan tərəfdaşlarımızın enerji resurslarının bir hissəsi Azərbaycan vasitəsilə dünya bazarlarına nəql edilir".

Görünən odur ki, Azərbaycanın tranzit daşımalarla bağlı imkanları çoxşaxəlidir. Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər? Azərbaycan tranzit ölkə kimi türk ölkələrinin dünya bazarına çıxışında necə rol oynayır?

Məsələyə münasibət bildirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənovun sözlərinə görə, Azərbaycan bu sahədə əhəmiyyətli rol oynayır: "Azərbaycan həm də bu sahədə açar rolunu oynayır. Azərbaycan ərazisindən yüklər daşınmasa, o zaman digər yollardan istifadə ediləcək. Ancaq məsələ ondadır ki, həmin yollar həm uzundur, həm də nəqliyyat xərcləri baxımından vəsait çox tələb edir. Ona görə də türkdilli ölkələr üçün Azərbaycan üzərindən yüklərin daşınması daha sərfəlidir. Şərqlə Qərbi, Cənubla Şimalı əlaqələndirən nəqliyyat yollarında ən optimal variant Azərbaycan üzərindən keçən yollardır. Azərbaycanın türkdilli dövlətlər üçün tranzit ölkə funksiyasını yerinə yetirməsi başadüşüləndir. Artıq bəlli məsələdir ki, Azərbaycan üzərindən Çindən Avropa istiqamətində gedən yüklər artır. O cümlədən, Avropada istehsal olunan məhsulların müəyyən bir qismi Azərbaycan üzərindən Asiya bazarlarına daşınır. Yaxın perspektivdə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin işə salınacağı gözlənir. Bundan türkdilli dövlətlər də faydalanacaqlar. Həmin dəhliz vasitəsilə daha çox məhsulun daşınmasına şərait yaranacaq. Nəticədə Azərbaycanın tranzit ölkə olaraq türkdilli ölkələrin dünya bazarlarına çıxışında rolu daha da artacaq.

*"Şərqlə Qərbi, Cənubla Şimalı əlaqələndirən nəqliyyat yollarında ən optimal variant Azərbaycan üzərindən keçən yollardır"*

Özbəkistan Azərbaycanın tranzit imkanlarından get-gedə daha çox istifadə edir. Bu ölkə pambıq məhsullarını Azərbaycan vasitəsilə dünya bazarına çıxarır. Qazaxıstan Bakı-Tiflis-Ceyhan neft kəmərinin imkanlarından istifadə edir. Türkmənistanın da bu işlərdə fəal iştirak edəcəyi gözlənir. Artıq Bakı-Tiflis-Qars dəmir yolu, Ələt limanı vasitəsilə yüklərin daşınmasına maraq get-gedə daha da artır. Avtomobil yollarının imkanlarından da istifadə edilir. Bütün bunlar Azərbaycanın bu və ya digər formada türkdilli dövlətlər üçün nəzərdə tutulan yükdaşımalarda fəal iştirak etdiyini göstərir".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda Türkiyənin 12, Türkiyədə Azərbaycanın 15 milyard dollar yatırımı - aradakı fərqi necə azaltmalı...

**Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağa malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub.**



## *Rüfət Quliyev: "Türkiyə ilə Azərbaycan arasında iqtisadi münasibətlər çox güclü olaraq inkişaf edir"*

Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Eyni zamanda, Türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini bu gün şərtləndirən mühüm amillərdən biri də məhz Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından keçir.

Hazırda siyasi müstəvidə ölkələrimiz arasında yüksək səviyyədə münasibətlər formalaşmaqla yanaşı, iqtisadi sahədə əlaqələr inkişaf edir. Azərbaycan-Türkiyə iqtisadi əlaqələri inkişaf edərək, hər iki ölkə bir-birinə qarşılıqlı sərmayə yatırır.

Məlumat üçün bildirək ki, Azərbaycan Türkiyə iqtisadiyyatına ən çox sərmayə qoyan ölkələrdən biridir.

Oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçirilən zaman Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın Türkiyə iqtisadiyyatına sərmayəsi 15 milyard ABŞ dolları, Türkiyənin Azərbaycan iqtisadiyyatına qoyulan sərmayəsi isə 12 milyard ABŞ dolları təşkil edir.

İ.Əliyev qeyd edib ki, tarixən qədim İpək Yolunun üzərində yerləşən ölkələrimiz arasında nəqliyyat sahəsində əməkdaşlıq, təbii ki, əsas istiqamətlərdən biridir: "Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. 2017-ci ilin oktyabr ayında istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu tarixi İpək Yolunun bərpasına bizim müştərək töhfəmizdir. Bakı Beynəlxalq Dəniz Limanı 15 milyon ton yük və 100 min konteyner yükaşırma qabiliyyətinə malikdir. Ehtiyac olduğu təqdirdə limanın yükaşırma qabiliyyəti 25 milyon ton yük və 1 milyon konteynerə kimi artırıla bilər. Azərbaycan etibarlı tranzit ölkəsi olaraq türkdilli ölkələrin dünya bazarlarına çıxışı üçün səylərini davam etdirir. 2018-ci ildə türkdilli ölkələrdən 8 milyon ton yük Azərbaycan vasitəsilə daşınıb".

Azərbaycanın Türkiyə iqtisadiyyatına, eynilə Türkiyənin ölkəmizə yatırdığı sərmayənin əhəmiyyəti barəsində danışan millət vəkili Rüfət Quliyev qeyd etdi ki, Azərbaycanla Türkiyə arasında ticarət əməkdaşlığının potensialı inkişaf səviyyəsindədir. Türkiyə ilə Azərbaycan arasında iqtisadi münasibətlər çox güclü olaraq inkişaf edir: "Qarşılıqlı investisiyalar iki ölkə arasında iqtisadi əməkdaşlığın mühüm göstəricisidir. Azərbaycanın Türkiyə iqtisadiyyatına investisiyalarının ümumi həcmi 15 milyard dollar səviyyəsindədir. Hər il iki ölkə arasında ticari-iqtisadi münasibətlər şaxələnir və yeni sahələri əhatə edir. Azərbaycanın Türkiyəyə investisiyalarının bir qismi neft-qaz sahəsinə yerləşdirilib. Türkiyə, öz növbəsində, Azərbaycana 12 milyard dollar yatırıb, bunun da müəyyən hissəsi neft sektoruna yerləşdirilib. Türkiyə Azərbaycanın qeyri-neft sektoruna yatırdığı investisiyanın həcminə görə digər ölkələrdən seçilir. Təxminən Azərbaycanda Türkiyə kapitalı ilə 3400 şirkət, Türkiyədə isə Azərbaycan kapitalı ilə 2400 şirkət fəaliyyət göstərir".

*"Türkiyə Azərbaycanın qeyri-neft sektoruna yatırdığı investisiyanın həcminə görə digər ölkələrdən seçilir"*

Həmsöhbətimiz onu da vurğuladı ki, müstəqilliyin ilk illərində Azərbaycanda sahibkarlıq sinfi formalaşmağa başlayanda türk qardaşlarımız yanımızda olub.

***Günel CƏLİLOVA***

**Məlum olduğu kimi, Aşqabadda ötən gün keçirilən MDB sammiti zamanı əsas hadisə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı oldu. Xəbər verildiyi kimi, gündəlikdə olan məsələ-Böyük Vətən müharibəsində qələbənin əldə edilməsinin 75 iliyi münasibətilə MDB dövlət başçılarının birgə müraciətinin hazırlanması ətrafında çıxışlar zamanı İlham Əliyev Ermənistanda faşist əlaltılarının qəhrəman kimi təqdim edilməsinə toxunub.**

# İrəvanda Njdenin heykəlinin sökülməsi Ermənistan hakimiyyətlərinə sağalmaz zərbə olacaq

## *Fikrət Sadıqov: "Njdenin heykəli götürülsə, o zaman ölkə daxilində ona qarşı güclü etirazlar baş verə bilər"*



Bildirib ki, MDB dövlət başçıları dəfələrlə faşistlərin qəhrəman obrazının yaradılmasına qarşı çıxsa da, Ermənistanın keçmiş hakimiyyəti faşist Qaregin Njdeyə abidə qoyub və Rusiya Xarici İşlər Nazirliyi də bunu pisləyib. Həmin məruzədə deyilir: "Ermənistanın keçmiş hakim Respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyxlə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb". Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycan dövlət başçısının çıxışında səslənən əsaslı arqumentlərə cavab verməyə uğursuz cəhd edib və deyilənləri təkzib etməyə çalışıb. Hətta Qaregin Njde ilə Stalin repressiyalarının qurbanları, o cümlədən Aleksandr Soljenitsın arasında paralellər aparıb. Lakin Prezident İlham Əliyev ikinci dəfə söz alaraq Paşinyanın arqumentlərini darmadağın edib. Daha sonra bunları deyib: "Ona görə də mən hesab edirəm ki, ilk növbədə özünü demokratik yolla seçilmiş hesab edən yeni hakimiyyət bu ləkədən, bu rüsvayçılıqdan yaxa qurtarmalı və həmin heykəli sökməlidir". O da məlumdur ki, sözügedən heykəl İrəvanda əvvəlki prezident Serj Sarkisyanın hakimiyyəti dövründə ucaldılıb. Demokratiyadan dəm vuran Nikol Paşinyan hakimiyyətə gələndən sonra Njdenin heykəlini sökməyib. Baxmayaraq ki, bu məsələ Ermənistana böyük utanc gətirib. Bu həm də ermənilərin faşist xislətinə malik olduqlarını göstərir. Bütün bu deyilənlərin fonunda maraqlıdır, İrəvanda Njdenin heykəli sökülsə Paşinyan hakimiyyətinə nə olacaq? Ölkə daxilində nə baş verəcək?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Paşinyan Njdenin heykəlinin sökülməsi ilə bağlı addım atsa, bu, Ermənistan daxilində ona qarşı müəyyən etirazlara səbəb olacaq: "Paşinyan da bundan qorxur. Məsələ ondadır ki, Ermənistan cəmiyyətində və siyasi dairələrdə faşizm ideologiyasının tərəfdarı olan Njdenin tərəfdarları var. Ancaq o da bir reallıqdır ki, faşizm ideyalarını müdafiə edənləri dünya qəbul etmir. Faşizmin postsovet ölkələri üçün nə olduğunu hamı yaxşı bilir. Çünki faşizim böyük fəlakətlərə səbəb olub. Prezident İlham Əliyev məlum çıxışı ilə Paşinyana güclü zərbə vurdu. Həm siyasi, həm də diplomatik baxımdan Paşinyana ciddi zərbə oldu. Hesab edirəm ki, bu zərbədən sonra Paşinyan uzun müddət özünə gəlməyəcək. Ermənistanda faşist ideyasını dəstəkləyən insanlar çoxdur. Bu ideyadan bəhrələnən siyasi dəstələr, qruplar vardır. Paşinyan nə qədər populist olsa da, heykəl məsələsində qorxur. Njdenin heykəli götürülsə, o zaman ölkə daxilində ona qarşı güclü etirazlar baş verə bilər.

*"Orada müxalif mövqedə olan müəyyən qüvvələr bu amildən Paşinyana qarşı istifadə edəcək"*

Bu zaman Paşinyanın kreslosu laxlayacaq. Orada müxalif mövqedə olan müəyyən qüvvələr bu amildən Paşinyana qarşı istifadə edəcəklər. Onu da nəzərə almaq lazımdır ki, erməni cəmiyyəti faşizm xislətinə meyllidir. Baxmayaraq ki, SSRİ dönəmində ermənilər almanlara qarşı müharibədə iştirak ediblər.

**Hesab edirəm ki, Paşinyan həm bu qüvvələrin mövqeyini nəzərə alır, həm də özü də faşizm ideyasına rəğbət bəsləyir. Çünki o axmaq çıxışında bildirdi ki, Njde Türkiyəyə qarşı vuruşurdu. Kimə qarşı vuruşursansa-vuruş, sən hərbi cinayətkarsansa, faşist rejimi ilə əməkdaşlıq edirsənsə, o zaman cinayətkarsan".**

*Vidadi ORDAHALLI*

**Azərbaycan Respublikası sosial, hüquqi, iqtisadi, tibbi və digər vasitələrlə uşaqları istismarın bütün növlərindən və təsirlərdən, o cümlədən fiziki və psixi zorakılıqdan mühafizə edir, məişət zorakılığının, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrinin qarşısının alınması, zərər çəkmiş şəxslərin müdafiəsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirir.**

# Fuad Qəhrəmanlıya ailə zorakılığına görə cinayət işi açıldı



Baş Prokurorluğun mətbuat xidmətindən baki-xeber.com-a bildiriblər ki, bu ilin sentyabrında Abşeron rayon sakini Qəhrəmanlı Fuad Əli oğlunun yetkinlik yaşına çatmayan qızları Sənay və Selcan Qəhramanlılara, eləcə də arvadı Zümrüd Qəhrəmanlıya qarşı zorakılıq edərək onlara iztirablar verməsi barədə Selcan Qəhrəmanlının sosial şəbəkə hesabında və kütləvi informasiya vasitələrində yayılan məlumatlar geniş ictimai rezonansa səbəb olub. Məlumatda Fuad Qəhrəmanlının öz ailəsinə qarşı təxminən 40 dəfə zorakı hərəkətlər etməsi qeyd olunub.

Həmçinin Zümrüd Qəhrəmanlı "YouTube"da yerləşdirilən müsahibəsində əri Fuad Qəhrəmanlının 2010-cu ildə ağır şüşə stəkanla azyaşlı qızı Sənayın dizini, 2013-cü ilin yayında onun barmağını sındırdığını, 2015-ci ilin noyabrında isə ona digər xəsarətlər yetirdiyini, azadlıqda, hətta həbsdə olarkən belə onlara psixi iztirablar verdiyini bildirib. Z.Qəhrəmanlı qızı Sənayın xəsarətlərini təsdiqləyən sənədlərin və fotoşəkillərin olduğunu qeyd edib, həmin hadisələrdən Fuad Qəhrəmanlının təmsil olunduğu partiyanın sədri Əli Kərimli və rəhbərlikdə təmsil edilən digərlərinin məlumatlı olmasına baxmayaraq, onlar tərəfindən bu şiddətin qarşısının alınması üçün heç bir tədbirin görülməməsi, yol verilmiş məişət zorakılığının üstünün ört-basdır edilməsinə cəhd göstərilməsi barədə məlumat verib.

Bundan başqa, "Facebook" sosial şəbəkəsində Gülnarə Mehdiyeva adlı jurnalist Zümrüd Qəhrəmanlının bədənində zorakılıq izlərini göstərən fotoşəkillər paylaşıb və Fuad Qəhrəmanlının qızları ilə söhbət zamanı ataları tərəfindən uzun illər ərzində onlara və analarına qarşı olunan zorakılığı etiraf etdiklərinə dair məlumat yayıb.

Ailə, qadın və uşaq problemləri üzrə respublikada fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının sədrləri həmin faktla bağlı birgə bəyanat yayaraq, ailə üzvlərini fiziki və psixi iztirablara məruz qoymuş, onlara əzab vermiş Fuad Qəhrəmanlı barəsində ciddi tədbirin görülməsini istəyiblər.

Törədilmiş cinayətin azyaşlı və köməksiz vəziyyətdə olan şəxs barəsində törədilməsi xüsusatı nəzərə alınaraq, cinayət prosessual qanunvericiliyinin tələbləri əsas götürülməklə Baş Prokurorluq tərəfindən müvafiq araşdırma aparılıb.

Araşdırma zamanı Bakı şəhəri Kliniki Tibbi Mərkəzin qeydiyyat jurnallarına baxış protokolu, təqdim olunmuş sənədlər, izahatlar və digər sübutlarla müəyyən edilib ki, 2004-cü il təvəllüdlü Sənay Qəhrəmanlı 2010-cu ilin yanvarında sağ diz nahiyəsində travmatik çat (natamam sınıq), travmatik zədə yerində su yığılması və şişkinliklə bağlı müayinə və müalicə olunub, ona tibbi yardım göstərilib. Sənay Qəhrəmanlı 2018-ci il 26 sentyabr tarixdə təkrarən sağ diz nahiyəsində müayinə olunma zərurəti ilə bağlı həmin xəstəxanaya müraciət edib və aşağı ətrafların rentgen müayinəsi keçirilib.

Göstərilən faktların tam, hərtərəfli və obyektiv araşdırılması məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 133.2.1-ci (iki və ya daha çox şəxsə qarşı döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə) və 133.2.4-cü (təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan, habelə köməksiz vəziyyətdə olan şəxsə qarşı döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə) maddələri ilə cinayət işi başlanıb.

Cinayətin xarakteri, işin xüsusiyyətləri və hadisələrin Abşeron rayonunun ərazisində baş verməsi nəzərə alınaraq cinayət işinin istintaqı Abşeron Rayon Prokurorluğuna həvalə olunub.

Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Türkiyənin Suriyada başlatdığı hərbi əməliyyatlar Qərb dünyasında, xüsusən də ABŞ-da getdikcə daha böyük narahatlığa yol açır. Bu fonda onlar Ankaradan hərbi əməliyyatların dayandırılmasını tələb edir, əks təqdirdə Türkiyəyə qarşı sərt addımlar atacaqlarını bildirir. Amma Türkiyə də geri çəkilmək niyyətində deyil.**

# ABŞ-ın Türkiyəyə qarşı iqtisadi savaşı sərtləşir, savaşın Azərbaycana mümkün təsirləri müzakirədə...



Ölkə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycandan qayıdan zaman təyyarədə jurnalistlərə açıqlamasında bildirib ki, Türkyə hədəfinə çatmaqda israrlıdır. Onun sözlərinə görə, PKK sürətlə mövqelərini itirir: "Hədəfimiz terrorçuların 32 kilometrlik ərazidən kənara çıxarılmasıdır". Ərdoğan ABŞ prezidenti Donald Trampın Türkiyəyə etdiyi atəşkəs təklifini qəbul edə bilməyəcəklərini bildirib. Belə vəziyyətdə ABŞ-ın əl atdığı əsas vasitə sanksiyalar yolu ilə Türkiyəni dayandırmaqdır. Artıq məlum olduğu kimi, Donald Tramp Türkiyəyə qarşı sanksiyalar tətbiq edib. Dövlət katibi Mayk Pompeo bildirib ki, Tramp Türkiyə ilə bağlı icraçı fərman imzalayıb. İcraçı fərman Maliyyə Nazirliyinə və Dövlət Departamentinə Türkiyə hökumətinin ayrı-ayrı şəxslərinə, təşkilatlara qarşı sanksiyalar tətbiq etmək səlahiyyəti verir. ABŞ prezidentinin özü isə poladın idxalına tətbiq olunan gömrük vergisinin 50 faizə qaldırılacağını açıqlayıb. Türkiyə ilə 100 milyard dollarlıq ticarət razılaşmasını ehtiva edən müzakirələr dərhal dayandırılacaq. Ağ Evdən bu xüsusda bildirilib: "Prezident Tramp, xüsusilə Türkiyə hökumətinin son dövrdə Suriyanın şimalında keçirdiyi hərbi müdaxilə olmaqla, Suriya ilə əlaqədar vəziyyətin İŞİD-i məğlubetmə kampaniyasını baltaladığını, vətəndaşları təhlükəyə atdığını və bölgədə sülh, təhlükəsizlik və sabitliyi təhdid etdiyini düşünür. Tramp artıq bu mövzuda bəzi addımlar atıb. Maliyyə Nazirliyi Dövlət Departamenti ilə birlikdə Suriyada sülh, təhlükəsizlik, sabitlik və ya ərazi bütövlüyünü təhdid edən Türkiyə hökumətinin indiki və keçmiş rəsmilərini müəyyən edərək onların ABŞ-dakı aktivlərini müsadirə edə bilər. ABŞ Maliyyə Nazirliyinin müəyyən etdiyi maliyyə qurumlarına da məhdudiyyətlər tətbiq ediləcək". Maliyyə Nazirliyi isə "Sülh çeşməsi" hərəkatı çərçivəsində tətbiq edilən sanksiyaları açıqlayıb. Nazirlik Türkiyənin müdafiə naziri Hulusi Akar, daxili işlər naziri Süleyman Soylu və enerji və təbii sərvətlər naziri Fatih Dönmezin sanksiya siyahısına daxil edildiyini bildirib. Bundan başqa, Müdafiə Nazirliyi ilə Enerji və Təbii Sərvətlər Nazirliyinə qarşı da sanksiyalar tətbiq edilib. Sanksiya siyahısına daxil edilən şəxs və qurumların ABŞ-dakı aktivləri dondurulacaq, onların ABŞ-da maliyyə əməliyyatları həyata keçirməsi qadağan ediləcək. Birləşmiş Ştatların maliyyə naziri Stiven Mnuçin bildirib ki, Donald Tramp ABŞ rəsmilərinə Suriyanın şimalında hərbi əməliyyatlara başlayan Türkiyəyə qarşı çox ciddi digər sanksiyalara göstəriş verib. Bundan əvvəl isə respublikaçı senator Lindsi Qrem və onun demokrat həmkarı Krin Ban Hollen Türkiyəyə qarşı ölçüləri açıqlayıb. Onlar, prezident Rəcəb Tayyib Ərdoğan da daxil edilməklə, Türkiyənin yüksək səlahiyyətli rəsmilərinə qarşı sanksiyalar tətbiq etməklə yanaşı, Rusiyadan S-400 raketlərdən müdafiə sistemi alan Türkiyənin cəzalandırılması və Türkiyə rəsmilərinə viza məhdudiyyətlərinin qoyulmasını təklif edib.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu isə bildirir ki, ölkəsi sanksiyalardan qorxmur: "Əgər biz sanksiyalardan qorxsaydıq, bu əməliyyatları başlatmazdıq. Bu bizim milli təhlükəsizliyimiz üçün həyati əhəmiyyət daşıyır". Nazir qeyd edib ki, heç bir ölkə Türkiyə iqtisadiyyatını çökdürməyə qadir deyil. Türkiyə prezidentinin köməkçisi Fuat Oktay da sanksiya təhdidlərinin sərhədin digər tərəfindən gələn terror təhdidindən daha böyük təhdid olmadığını bildirib: "Kim nə söyləyirsə söyləsin, Türkiyə olaraq, bölgənin terrordan təmizlənməsi mövzusunda çox əzmli və qərarlıyıq". Beləliklə, bütün bunlar ABŞ və Türkiyə arasında artıq iqtisadi müstəvidə sanksiyalar savaşının başlandığını göstərir. Bunun qardaş ölkəyə, onunla sıx işbirliyi quran Azərbaycana real təsirləri də olduqca maraq doğurur. Məsələ ilə bağlı türkiyəli iqtisadçı Kərəm Karabulut bildirir ki, sanksiyalar Türkiyə iqtisadiyyatına təsir edə bilməz: "Çünki Türkiyə iqtisadiyyatı ABŞ iqtisadiyyatından asılı deyil. Türkiyə ümumi xarici ticarətinin təxminən 21 milyard dollarını ABŞ-la həyata keçirir. Bunun 8,5 milyard dolları ixracın, 12,5 milyard dolları isə idxalın payına düşür. Yəni Türkiyə bu ölkəyə daha az satıb, daha çox mal və xidmət alır. Bu səbəbdən zərər görəcək ölkə Türkiyə deyil, ABŞ olar. Türkiyənin xarici ticarəti təxminən 400 milyard dollardır. Yəni Türkiyə ümumi ticarətinin 5 faizini ABŞ-la həyata keçirir". O bildirib ki, bundan başqa, Türkiyə silah baxımından da ABŞ-dan asılı deyil: "Alternativ ölkələrdən silahlar ala bilir və ya istifadə etdiyi silahların böyük bir hissəsini özü istehsal edir. Bu səbəbdən Türkiyəyə heç bir ölkənin təzyiqi təsir etməz. Türkiyə əhali, ərazi və gəlirin çoxluğu baxımından dünyanın öndə gələn güclü ölkələrindən biridir. Türkiyənin əhalisi səkkiz Avropa Birliyi ölkəsinin ümumi əhalisinin sayından daha çox, ərazisi isə beş Avropa Birliyi ölkəsinin ümumi məkanından daha böyükdür. Ölkə daxilində də birlik və bərabərlik halında olan Türkiyə iqtisadiyyatına xaricdən gələcək sanksiyalarla zərər verilməsi çox çətindir". ABŞ-ın Türkiyəyə sanksiya tətbiq etməsinin Azərbaycan iqtisadiyyatına təsiri ilə bağlı isə ekspert qeyd edib: "Türkiyəyə tətbiq edilən sanksiyaların Azərbaycan iqtisadiyyatına heç bir təsiri olmaz. Tam əksinə, Azərbaycanla Türkiyə arasındakı ticarəti və qardaşlıq əlaqələrini artırır. Bizim ölkələrimiz çox möhkəm tellərlə bir-birinə bağlıdır. Ümummilli lider Heydər Əliyev "Biz iki dövlət, bir millətik" deyərək, Türkiyənin qurucusu Mustafa Kamal Atatürk də "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" deyərək bu bağları göstərmişdirlər. Onsuz da Türkiyə ilə Azərbaycanın birgə hərəkət etməsi hər iki ölkənin beynəlxalq arenada ən mühüm təminatı və sığortasıdır. Türkiyə iqtisadiyyatı təsirlənmədikcə Azərbaycan iqtisadiyyatı da təsirlənməz. Azərbaycan da Türkiyə kimi həm yerləşdiyi region, həm də dünyada önəmli yerə malik və güclü rəhbərliyi olan ölkədir. Belə güclü iki ölkənin xarici sanksiyalardan əziyyət çəkməsi mümkün deyil".

Hazırda sanksiyalar məsələsi Türkiyə iqtisadiyyatına hansısa formada ciddi təsir göstərmir. Yalnız lirənin məzənənsində cüzi ucuzlaşma var və hökumət müdaxildəsi ilə bunun da aradan qalxması gözlənilir. İqtisadçı Vüqar Bayramov da qeyd edir ki, Ağ Ev sanksiyaları gücləndirəcəyi halda, Türkiyə iqtisadiyyatına yönəldilən birbaşa xarici investisiyaların həcmində azalmalar ola bilər: "Türkiyə Azərbaycan üçün yalnız strateji baxımdan deyil, həmçinin iqtisadi aspektdən də vacib tərəfdaşdır. Azərbaycan son illər Türkiyə iqtisadiyyatına 15 milyard dollardan çox sərmayə yönəldib. Türkiyə Azərbaycanın qeyri-neft ixracatında ikinci əsas tərəfdaşdır. Qeyri-neft məhsullarımızın üçdə biri Türkiyənin payına düşür". Bunlar fonunda hesab edilir ki, ABŞ sanksiyaları gücləndirdiyi təqdirdə Türkiyə digər ölkələr, o cümlədən Azərbaycanla daha çox yaxınlaşacaq. Xüsusən də Türk Şurasının Bakı görüşündən sonra hadisələrin məhz bu istiqamətdə inkişaf edəcəyi daha aydın görünür.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın yeni hava döyüş texnikaları - Ermənistanda artan müharibə ehtimalını daha ciddi nəzərə almağa başlayırlar

**Hərbi müstəvidə Azərbaycanın işğalçı Ermənistanla müqayisədə ən böyük üstünlüklərindən biri də modern əsgəri texnologiyaları müxtəlif mənbələrdən ala bilməsidir. Bu gün Azərbaycan İsrail, Türkiyə, Rusiya, Belarus, Pakistan, Fransa, İtaliya, Çexiya və digər ölkələrdən hərbi texnologiyalar alır.**

Ermənistana silah tədarük edən yeganə ölkə qismində isə Rusiya çıxış edir və özü də rusların əsas etibarı ilə erməni tərəfinə müasir tələblərdən çox uzaq texnologiyalar satması da heç kimə sirr deyil.

Burada məsələnin maraqlı tərəflərindən biri də odur ki, son dövrlərdə Qərb ölkələri NATO standartlarına cavab verən texnologiyanın Azərbaycana satışını həyata keçirir. Əvvəllər Qərb dövlətləri Dağlıq Qarabağ münaqişəsinin davam etməsini əsas gətirib bundan imtina edirdi. Amma son illərdə Azərbaycanın apardığı uğurlu diplomatiya artıq öz müsbət nəticələrini verib. İndi müxtəlif Qərb ölkələri Azərbaycana öz yeni məhsullarını həvəslə satır. Ermənistanın, onun Qərbdəki lobbisinin buna mane olmaq cəhdi isə artıq birmənalı şəkildə iflasa uğrayır. Əvəzində Azərbaycan yeni texnologiyaların idxalını davam etdirir. Bunun daha bir təsdiqi Hərbi Hava Qüvvələrinin ixtiyarına İspaniya istehsalı olan ən müasir çoxməqsədli radiolokasiya stansiyasının (RLS) verilməsidir.

Xatırladaq ki, yeni radiolokasiya stansiyasının açılışında Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti də iştirak edib. Səslənən məlumatlardan belə bəlli olur ki, radiolokasiya stansiyası həm stasionar, həm də taktiki şəraitdən asılı olaraq mobil qaydada istifadə edilə bilər. O da qeyd olunur ki, İspaniya istehsalı olan və NATO standartlarına cavab verən bu stansiya NATO ölkələrinin ordularının silahlanmasında da yer alıb. Məlumat üçün bildirək ki, bu stansiya İspaniyanın "Indra Sistemas" şirkəti tərəfindən istehsal olunur. "Indra Sistemas" İspaniyada bütün müdafiə sənayesi üçün inkişaf istiqamətlərini formalaşdıran nüfuzlu şirkət hesab edilir. Stansiyada mövcud olan "Battlefield Target Recognition System", yəni döyüş meydanında hədəflərin tanınma sistemi, özünün və müttəfiqlərinin vasitələrinə atəş açmaq ehtimalını azaldır. Bu sistem millimetr dalğada fəaliyyət göstərir və hədəf tanınma səhvlərini minimuma endirərək məhsuldarlığın artması ilə xarakterizə olunur. Özünün və müttəfiq qüvvələrin fəaliyyətlərini izləmək üçün cihazları avtonom şəbəkəyə birləşdirmək də mümkündür. İspaniyanın Azərbaycana satdığı LTR-25 LANZA 3D uzaqmənzilli taktiki radiolokasiya stansiyası ölkəmizin hərbi üstünlüyünü əhəmiyyətli dərəcədə artırır. İlk növbədə o baxımdan ki, LANZA radarları İspaniyanın ən uğurlu müdafiə sənayesi məhsullarından biri hesab edilir. Azərbaycanın satın aldığı çoxrejimli və yüksək tezlikli LTR-25 LANZA 3D radarı istənilən hava şəraitində, 30 kilometr yüksəklikdə və 444 kilometrə qədər fəaliyyət radiusunda hədəfləri təyin etməyə imkan yaradır. LTR-25 LANZA 3D radarları tək impulslu iynəvari istiqamət diaqramı sayəsində aşkarlanmanın yüksək dəqiqliyini və düşmənin radioelektron müdaxiləsindən qorunmanı təmin edir. LANZA çoxməqsədli olmaqla, bir çox təhdidlərə qarşı uyğunlaşdırılan radardır. Radarın dizaynı mövcud NATO texniki əməliyyat və texniki xüsusiyyət tələblərinə cavab verməklə yanaşı, həm də gələcək təhdidlərin ssenarisində baş verə biləcək dəyişiklikləri də nəzərə alır. Şirkətin əldə etdiyi nailiyyətlər və yeni prinsiplər maksimum radar aşkarlanmasına nail olmaq üçün antenin barmaqlığı lövhəsində, gücləndiricilərdə və siqnal emalı texnologiyasında tətbiq edilib. LTR-25 LANZA 3D RLS-in dizaynında stels əleyhinə təkmilləşdirilən aşkarlama, aşağı səviyyəli siqnalların mükəmməl izlənilməsi qabiliyyəti mövcuddur. Antenin hər bir barmaqlığı öz qəbuledici elementinə malikdir. Radarlar dəniz, quru və hava vasitələrində istifadə üçün konkret iqlim şəraitinə, tətbiq məqsədlərinə və məsafəsinə görə uyğunlaşdırıla bilir, həmçinin daşınan və ya sabit platformalarda istehsal edilir. Son 5 ildə keçirilən NATO tenderlərini bu radarların qazanması özü özlüyündə bir çox mətləblərdən xəbər verir. Hazırda NATO-nun cənub-qərb cinahı məhz bu RLS-lər vasitəsilə qorunur. İspaniyadan başqa Portuqaliya, Uruqvay, Ekvador, Avstraliya, Oman və Almaniya şirkətin daimi müştərilərindəndir. İstehsal olunan məhsullar bütün növ platformalarda yerləşdirilə və bütün vəzifələri icra edə bilər. Eyni zamanda, LTR-25 üçkoordinatlı radarı mövcud və perspektiv sistemlərlə birgə istifadə üçün də yararlıdır. Bu stansiya vasitəsilə təyyarə, helikopter, pilotsuz uçuş aparatı və qanadlı raketlər kimi aerodinamik hava obyektlərinin aşkarlanması, uçuş parametrlərinin təyin edilməsi və müşayiətə götürülməsini təmin edilir. Bütün bunlar Azərbaycanın düşmən üzərində üstünlüyünün daha da artmasını şərtləndirən mühüm faktorlardan hesab edilir.

Digər tərəfdən artıq görünən budur ki, Qərb ölkələri artıq Azərbaycanla hərb müstəvisində hərbi əməkdaşlığın dərinləşdirilməsində xüsusi maraqlı tərəf kimi çıxış edir. Qərb hərbi sənaye şirkətlərinin bir-birinin ardınca əməkdaşlığa başlaması da bunun təsdiqidir. Məsələn, artıq məlumdur ki, Fransanın "Naval Group" şirkəti Azərbaycan Silahlı Qüvvələrinin təklifinə uyğun olaraq OPV-90 gəmisini hazırlayıb. Bundan əlavə, Fransanın müdafiə sənayesində tanınmış şirkətlərdən olan "MBDA Systems","CİFAL Group", "Airbus Defense", "Etienne Lacroix", "Nexter Systems", "Proengin", "Thales" və digər şirkətlər də ölkəmizdə əməkdaşılqda maraqlı olduqlarını açıq bəyan edir. O da məlumdur ki, Azərbaycan artıq digər Qərb ölkəsi olan İtaliyadan 10 ədəd M-346 təlim-döyüş təyyarəsi alıb. Tam adı "Alenia Aermacchi M-346 Master" olan bu təyyarələr artıq ordumuzun təlimlərində istifadə olunur. Avropanın ən böyük iqtisadyyatına malik Almaniya da Azərbaycanla hərbi əməkdaşlıq istiqamətində mühüm addımlar atır. Artıq məlumdur ki, Azərbaycanın hərbi sənaye sahəsində Almaniya ilə əməkdaşlıq etməsi üçün zəruri zəmin hazırlanıb. Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi ilə Almaniyanın "Rheinmetall Defence" şirkəti arasında əməkdaşlıq haqqında niyyət protokolu imzalanıb. Qeyd edək ki, Avropanın ən qabaqcıl şirkətlərindən olan "Rheinmetall Defence" xüsusilə müdafiə məqsədli mobil sursatların və texnologiyaların istehsalı ilə məşğul olur. Şirkət müxtəlif tipli ağır və yüngül zirehli döyüş texnikası, iriçaplı artilleriya sistemləri, minaatanlar və müxtəlif digər silahlar istehsal edir. Artıq müəyyən müddətdən sonra həmin texnikadan ordumuzun ixtiyarında olması da gözlənilir. Bundan başqa, xatırladaq ki, Azərbaycan Çexiya istehsalı olan və İsraildə modernləşdirilmiş "Dana" özüyeriyən haubitsalarını və "Vampir" reaktiv yaylım atəşi komplekslərini alıb. Eləcə də Azərbaycanın Hərbi Hava Qüvvələrinin silahlanmasına Amerika istehsalı olan "Bell-412" hərbi-nəqliyyat vertolyotlarının daxil edildiyi məlumdur. İndi bu Qərb ölkələrinin sırasına İspaniya da qoşulub və bunlar Ermənistanda çox böyük qıcıq yaradır.

Erməni tərəfinin narahatlığına yol açan daha bir məqam isə Azərbaycanın Hərbi Hava Qüvvələrini müasir döyüş təyyarələri ilə təchiz etmək üçün Pakistan-Çin istehsalı olan JF-17 qırıcılarının alınması ilə bağlıdır. Pakistanın "Daily Times" qəzeti yazır ki, Pakistan JF-17 qırıcılarını, Azərbaycan da daxil olmaqla, 4 ölkəyə ixrac etməyə hazırlaşır. Erməni hərbi ekspert Vaan Ambartsumyan bildirir ki, bu xəbər Ermənistan üçün yaxşı heç nə vəd etmir: "Azərbaycan neçə vaxtdır maraq göstərdiyi JF-17 qırıcılarını almağa hazırlaşır. Mən deyə bilmərəm ki, onlar həmin qırıcılardan neçə vahid alacaqlar, lakin Bakı onları tezliklə əldə edəcək. Mahiyyətcə bunlar Çinin "FC-1 Xiaolong" qırıcılarının Pakistanda yığılan variantıdır, lakin göstəriciləri yaxşılaşdırılıb. Pakistan versiyası hava döyüşünün aparılması, yerüstü, yeraltı və suüstü hədəflərin vurulması üçün nəzərdə tutulub. Onun əsas üstünlüklərindən biri budur ki, Rusiyadakı rəqibi Su-30 SM-lə müqayisədə xeyli ucuzdur, döyüş xarakteristikasına görə isə ondan heç nə ilə geri qalmır". Erməni hərbi ekspert qeyd edib ki, Pakistan qırıcılarının döyüş xarakteristikaları əsasən onda Çin istehsalı olan xüsusi asqı konteynerinin yerləşdirilməsi imkanına görə artır. Pakistanlılar isə bu asqını daha müasir və mükəmməl Türkiyə asqı konteyneri "ASELPOD"la əvəz ediblər. Ambartsumyana görə, Bakının silahlanma sahəsində son addımları, xüsusən də hava döyüş texnikası sahəsində sövdələşmələri Azərbaycanın Qarabağ məsələsini hərbi yolla həll etməyə hazırlaşdığını göstərir. Bütün bunlar həm də onu göstərir ki, Azərbaycanın silahlanmada şaxələndirmə siyasəti yürütməsi də öz müsbət nəticəsini verir və Bakı, Avropa ölkələri də daxil olmaqla, müxtəlif dövlətlərlə uğurlu əməkdaşlıq yarada bilib. Ermənistanın bütün cəhdlərinin əksinə olaraq, Qərb dövlətləri, digər sahələrlə yanaşı, hərbi sferada da ölkəmizlə əməkdaşıla getdikcə daha çox maraq göstərir. Onlar hərbi-iqtisadi sahədə Azərbaycanın imkanlarının nəyə çatdığını yaxşı bilirlər. Elə bu səbəbdən də ölkəmizlə hərbi əməkdaşlığa böyük diqqət yetirirlər. Bütün bunlar o deməkdir ki, hər an başlaya biləcək ikinci Qarabağ savaşında Azərbaycan düşmən ordusunu darmadağın etmək üçün hərbi sahədə üstünlüyünü sürətlə artırır. Elə bundan irəli gəlir ki, Azərbaycanla yeni savaş Ermənistanda böyük əksəriyyət tərəfindən əsl fəlakət kimi qəbul olunur.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# 9 ayda Azərbaycan 2 milyard dollarlıq qaz ixrac etdi, gələn il bu azı iki dəfə artacaq

**Azərbaycanın ixrac məhsulları sırasında təbii qazın xüsusi çəkisinin getdikcə artması müşahidə edilməkdədir. Belə ki, bu ilin ilk doqquz ayında ölkənin ümumi ixracının 12,18 faizini məhz təbii qaz təşkil edib. Ötən ilin eyni dövründə isə Azərbaycanın ümumi ixracındakı təbii qazın payı cəmi 7,2 faiz olmuşdu.**

Amma artıq bu il ərzində 5 faizlik bir artım qeydə alınıb.

Ümumiyyətlə, bu ilin ilk doqquz ayında Azərbaycandan 9 milyard 103 milyon 228 min kubmetr təbii qaz ixrac olunub. Yanvar-sentyabr aylarında ixrac olunan təbii qazın dəyəri 1 milyard 810 milyon 567 min dollar təşkil edib. Xatırladaq ki, keçən ilin müvafiq dövründə ölkədən 5 milyard 262 milyon 743 min kubmetr təbii qaz ixrac edilmiş, həmin ixracın dəyəri isə 1 milyard 28 milyon 245 min dollar olmuşdu. Səslənən rəqəmlərdən bir daha bəlli olur ki, təbii qazın ümumi ixracda payı artmaqla yanaşı, bu məhsul ölkəyə daha çox gəlir gətirməyə başlayır. Gələn ildən etibarən isə bu gəlirin həcminin əhəmiyyətli dərəcədə artması gözlənilir. Çünki gələn ildən Azərbaycan qazının Avropaya nəqli başlanır. Bu məsələ ilə bağlı TANAP-ın baş direktoru Saltuk Düzyol qeyd edir ki, Azərbaycan təbii qazını Avropaya nəql etmək üçün hazır vəziyyətə gətirilən "Cənub Qaz Dəhlizi"nin ən mühüm seqmenti olan TANAP tamamlanıb, növbə TAP boru kəmərinindir: "Ərdahanın Posof qəsəbəsindən Türkiyəyə daxil olan, 20 şəhər, 67 qəsəbə və 600 kənddən keçdikdən sonra Ədirnənin İpsala qəsəbəsində Avropa sərhədinə çatan 1850 kilometrlik TANAP boru xətti Türkiyə-Yunanıstan sərhədində Azərbaycan qazını Avropaya çatdıracaq TAP-a qaz verilməsi üçün hazır vəziyyətə gətirilib. "Cənub Qaz Dəhlizi"nin son mərhələsi olan TAP tamamlandıqdan sonra Azərbaycanın "Şahdəniz-2" yatağından çıxarılan təbii qaz Avropaya çatdırılaraq qitənin enerji təhlükəsizliyinə töhfə verəcək".

Xatırladaq ki, "Cənub Qaz Dəhlizi"nin əsas seqmenti olan TANAP boru kəməri keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli isə, planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlayıb. TANAP bu il iyulun 1-dən Azərbaycan təbii qazının Avropaya nəqli üçün hazır vəziyyətə gətirilib. Azərbaycan təbii qazını Avropaya çatdıracaq TAP da artıq tamamlanmaq üzrədir. Belə ki, bu qaz boru kəmərinin inşası çərçivəsində Yunanıstan, Albaniya və İtaliyada boruların 99 faizi marşrut xətti boyunca düzülüb. Eləcə də, TAP-ın quru hissəsinin inşası üzrə İtaliyada boruların tikintisinə başlanıb. Yuxarıda qeyd olunduğu kimi, TAP-ın quru hissəsinin inşası çərçivəsində Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların 99 faizi torpağa basdırılıb. İlin sonuna kimi Yunanıstan və Albaniya marşrutunda boruların 100 faizi torpağa basdırılacaq. Bu fonda TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır. Xatırladaq ki, TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. TAP tamamlandıqdan sonra "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün geniş imkanlar yaradır. Artıq gələn ildən Azərbaycan qazının Avropaya çatdırılması gözlənilir. TAP Bolqarıstanın qaz ehtiyacının 33%-ni, Yunanıstanın 20%-ni, İtaliyanın isə, təxminən, 10,5%-ni qarşılayacaq. Avropanın tələbindən asılı olaraq, Azərbaycan Avropaya ötürülən təbii qazın miqdarını ilk mərhələdə iki dəfəyədək artıra bilər.

Digər tərəfdən məlumdur ki, layihəyə əlavə iştirakçıların qoşulması üçün də müvafiq addımlar atılır. Ekspertlərə görə, ilk növbədə bu layihəyə Türkmənistan qoşula bilər. Avropa İttifaqı artıq bu məqsədlə "Transxəzər" qaz kəmərinin çəkilişinə xüsusi maraq göstərir və müvafiq danışıqlar aparır. Xatırladaq ki, planlaşdırılan sualtı qaz kəməri Türkmənistanın Türkmənbaşı şəhərini Azərbaycanın paytaxtı Bakı ilə birləşdirməlidir. Bəzi mənbələrə görə, Qazaxıstandakı "Tengiz" yatağından da bir qaz kəmərini şəbəkəyə bağlamaq və onu Türkmənbaşı ilə birləşdirmək planlaşdırılır. O da məlumdur ki, nüfuzlu enerji şirkətləri olan "Edison Texnologies GmbH", "MMEC Mannesmann GmbH", "Air Liquide Global E&C Solutions" və Çinin "SINOPEC Engineering Group" kompaniyaları "Transxəzər" layihəsinin tikintisi və maliyyələşməsi ilə bağlı razılığa gəlib. Pekin bəyan edib ki, Çin Türkmənistandan Xəzərin dibi ilə ildə 30 milyard kubmetrlik qazın Avropaya nəqli üçün Transxəzər layihəsinə investisiya qoymağa hazırdır. Bütün bunlar "Transxəzər"in inşasının yaxın perspektivdə baş tutmasını istisna etmir. Belə vəziyyət, öz növbəsində, "Cənub Qaz Dəhlizi" ilə daşınan qazın həcminin daha da artmasına imkan verir. Onu da xatırladaq ki, "Transxəzər" kəmərinin təxmin edilən xərci 5 milyard dollar, nəzərdə tutulan uzunluğu 300 kilometrdir. Artıq ABŞ və Avropa bu xərci ödəməyə hazır olduqlarını bəyan edir. Elə bu fonda yaxın tezlikdə "Transxəzər"in reallaşdırılması istisna olunmur. Bu isə o deməkdir ki, "Cənub Qaz Dəhlizi" ilə Avropaya daha böyük həcmdə qaz axacaq. Məhz bu səbəbdəndir ki, hazırda "Cənub Qaz Dəhlizi"nə qoşulmaq istəyən Avropa ölkələrinin də sayı artır.




**Təbii ki, bütün bunlar Azərbaycanın iqtisadi maraqlarına tam şəkildə cavab verir. Ən əsası isə, belə vəziyyət təbii qaz satışından ölkənin getdikcə daha böyük həcmdə gəlir əldə etməsini şərtləndirir. Azərbaycan həm qazın satışından, həm də onun tranzitindən qarşıdakı dövr ərzində daha çox valyuta qazanacaq ki, bu da iqtisadi inkişaf və maliyyə sabitliyi baxımından mühüm önəm kəsb edir.**

*Tahir TAĞIYEV*

**Turizm dünya iqtisadiyyatında ən gəlirli sahələrdən biri sayılır. Neft, tibb, maşınqayırma sahəsindən sonra dördüncü ən gəlirli sahələrdən biridir. Buna görə də Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra bu sahəni inkişaf etdirməyi qarşısına məqsəd qoyub.**

# Azərbaycana gələn 2,4 milyon turistin cəmi 330 mini türk dövlətlərindən - türk dövlətlərinin xüsusi çəkisini necə artırmaq olar...



## *Pərviz Heydərov: "Ölkəmizdə olan istirahət mərkəzlərinin müasir standartlara cavab verməsi xarici turistlərin diqqətini cəlb edir"*

Azərbaycanın son illər sosial-iqtisadi inkişafı və beynəlxalq əlaqələrinin genişlənməsi xarici ölkə vətəndaşlarında ölkəmizə marağın artmasına səbəb olub. Burada son illər Azərbaycanda intensiv şəkildə keçirilən beynəlxalq forum və tədbirlərin, eləcə də böyük idman yarışlarının da rolunu xüsusi vurğulamaq lazımdır

Azərbaycanda turizm sektorunun inkişafı keyfiyyət və kəmiyyət baxımından yeni mərhələyə qədəm qoyur. Burada yeni infrastrukturun yaradılması, xidmət səviyyəsinin yüksəldilməsi turistlərin ölkəmizə maraq göstərməsinə səbəb olur. Danılmaz faktdır ki, son illər ölkəmizə gələn turistlərin sayı sürətlə artır. Bunu statistik rəqəmlər də təsdiq edir.

Qeyd etdiyimiz kimi, Azərbaycana dünyanın dörd bir yanından turist gəlir. Turistlər arasında türkdilli ölkələrin vətəndaşları üstünlük təşkil edirlər. Bunu Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə çıxışı zamanı deyib. O qeyd edib ki, ölkələrimizə xaricdən turistlərin cəlb edilməsi və ölkələrimiz arasında turist axınını təşviq etmək üçün səylərimizi artırmalıyıq: "2019-cu ilin doqquz ayında Azərbaycana, ümumilikdə, 2 milyon 400 min turist səfər edib ki, onlardan 330 mini türkdilli ölkələrin payına düşür. 2018-ci ilin eyni dövründə isə bu rəqəm 285 min idi".

Maraqlıdır, türkdilli ölkələrdən gələn turistlərin sayını necə artırmaq olar?

*"Türkdilli ölkələrdən ölkəmizə daha çox turist gəlməsi üçün viza məsələsi..."*

İqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda turizmin inkişaf etdirilməsində əsas məqsəd dünyanın inkişaf etmiş ölkələrindən, eyni zamanda, MDB ölkələrindən vətəndaşların istirahət üçün ölkəmizi seçməsinə nail olmaqdır. Bununla yanaşı, türkdilli ölkələrin vətəndaşlarının ölkəmizə maraq göstərməsi əhəmiyyətlidir. Türkdilli ölkələr arasında Türkiyə vətəndaşlarının turist kimi ölkəmizə səyahət etməsinin üstünlük təşkil etməsi məqsədəuyğun olar: "Nəzərə almaq lazımdır ki, Türkiyənin özü tanınmış turizm ölkəsidir. MDB ölkələrinin vətəndaşlarının əksər hissəsi Türkiyəyə üz tutur. Artıq Azərbaycan turizmi inkişaf etmiş ölkələrin turizm səviyyəsinə çatır. Məlumdur ki, son illər Azərbaycanda infrastrukturun müsbət mənada dəyişməsi turizmin inkişaf etməsinə səbəb olub. Ölkəmizdə olan istirahət mərkəzlərinin müasir standartlara cavab verməsi xarici turistlərin diqqətini cəlb edir".

İqtisadçı onu da vurğuladı ki, türkdilli ölkələrdən ölkəmizə daha çox turist gəlməsi üçün viza məsələsi asanlaşdırılmalı, turizm şirkətləri tərəfindən əlverişli güzəştlər tətbiq edilməlidir.

***Günel CƏLİLOVA***

**"Zirvə görüşlərimiz ənənəvi olaraq əməkdaşlığımızın müxtəlif sahələrini əhatə edən mövzulara həsr olunur. Kiçik və orta sahibkarlığa həsr olunan builki Zirvə görüşünün mövzusu da mühüm aktuallıq kəsb edir". Bunu Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə Prezident İlham Əliyev deyib.**

# Kiçik və orta sahibkarlığın inkişafında türkdilli ölkələr üçün Azərbaycan modeli...



## *Fikrət Yusifov: "Xüsusən də Orta Asiyada yerləşən türkdilli dövlətlərin bundan faydalanması daha məqsədəuyğundur"*

Dövlət başçısı bildirib ki, 2017-ci ildə Azərbaycanda Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb, agentliyin yaradılmasında da məqsəd məhz kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsidir: "Ölkə daxilində və xaricində geniş fəaliyyət imkanlarına malik güclü sahibkarlar sinfi formalaşıb. Sahibkarlığın İnkişafı Fondu tərəfindən indiyə qədər 36 min sahibkara 1,4 milyard ABŞ dolları həcmində güzəştli kredit ayrılıb. 2018-ci ildə özəl sektorun ölkəmizin ümumdaxili məhsulunda payı 85 faiz təşkil edib. Son 16 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb. Ölkəyə 270 milyard dollardan çox sərmayə qoyulub ki, bunun da yarısı xarici sərmayədir".

Ölkə başçısı onu da qeyd edib ki, iqtisadi sahədə aparılan islahatlar beynəlxalq təşkilatlar tərəfindən də təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə "Doing Business" hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb.

Bütün bu deyilənlərin fonunda, kiçik və orta sahibkarlığın inkişafı sahəsində Azərbaycan təcrübəsi başqa türk ölkələri üçün necə əhəmiyyətli rol oynayacaq?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, Azərbaycanın bu sahədə əldə etdiyi nailiyyətlər digər türkdilli ölkələr üçün faydalı ola bilər: "Məsələ ondadır ki, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində ötən illər ərzində bir sıra işlər görülüb. Sistemli islahatlar aparılıb və bu işlər çərçivəsində bir sıra çox önəmli qanunlar, qərarlar qəbul olunub. Bütün bunları etməkdə məqsəd kiçik və orta sahibkarlığı daha da inkişaf etdirmək, həmçinin, biznes mühitini daha da yaxşılaşdırmaq və bu sahədə mövcud olan maneələri aradan qaldırmaq olub. Ötən illər ərzində həyata keçirilən islahatlar çərçivəsində Azərbaycan bu sahədə böyük təcrübə əldə edib. Təsadüfi deyil ki, Azərbaycanın bu sahədə atdığı addımlar beynəlxalq reytinq agentlikləri tərəfindən yüksək qiymətləndirilir. Reytinq sıralamasında Azərbaycanın irəliləməsinin başlıca səbəblərindən biri də sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən islahatlardır. Ona görə də türkdilli dövlətlər kiçik və orta sahibkarlığın inkişafı sahəsində Azərbaycan təcrübəsindən bəhrələnməlidirlər. Xüsusən də Orta Asiyada yerləşən türkdilli dövlətlərin bundan faydalanması daha məqsədəuyğundur. Hesab edirəm ki, həmin dövlətlər Azərbaycanın bu sahədə təcrübəsini öyrənsələr, o zaman biznesin inkişafı sahəsində praktiki baxımdan müsbət nəticələr əldə edə bilərlər. Nəzərə almaq lazımdır ki, Orta Asiyada yerləşən türkdilli ölkələr bizim kimi uzun illər SSRİ tərkibində olublar. Azad sahibkarlıqla bağlı fəaliyyət 1991-ci ildən sonra genişləndi. Ona görə də bu yöndə təcrübə mübadiləsinin genişləndirilməsi, Azərbaycan təcrübəsinin öyrənilməsi faydalı olacaq".

*"Həmin dövlətlər Azərbaycanın bu sahədə təcrübəsini öyrənsələr, o zaman biznesin inkişafı sahəsində praktiki baxımdan müsbət nəticələr əldə edə bilərlər"*

***Vidadi ORDAHALLI***

# İbtidai hay sürüləri Nil çayı vadisində miladdan öncə I minillikdə

**Ermənistan adlanan respublikanın Diaspora işləri üzrə baş komissarı Zare Sinanyan Rusiya Federasiyasında olarkən 2019-cu ilin 10 sentaybr tarixində Moskva şəhərindəki Ermənistan muzeyində hay-daşnak mənşəli gənclərlə-tələbələrlə görüşərkən (təşkilatçı Moskva erməni gənclər İttifaqı olmuş və yığıncağı Rusiya erməni İttifaqının həmsədri david tonoyan aparıb) - "dünya kartoqrafiyasının gələcək inkişafı üçün Kanadadan tutmuş Livana qədər olan ərazidə mütəxəssislərin-hay xəritəçilərinin yetişdirilməsi" hədəfində olduqlarını bildirib.**

## (VIII məqalə)

Tələbələr müvafiq xəritə-arxiv materiallarının toplanılmasında iştirak edəcəklərini bildiriblər.

Eramızdan əvvəl IV-I minillikdə Nil çayı hövzəsində qəbilə-tayfa icmalarının ictimai-sosial və psixoloji düşüncə tərzinin formalaşması firon hakimiyyətinin sosial-ictimai və hərbi-siyasi inkişaf mərhələlərində müxtəlif səpgili amillərlə müşayiət olunsa da, ümumilikdə təbii amillərdən asılılıq istisna edilməyib. Nəzərə alsaq ki, Nil çayı Həbəşistan və Misir ərazilərini əhatə edir, deməli, Həbəşistan dağlıq yaylasında tarixən təşəkkül tapmış çoxsaylı və bioloji-fizioloji xüsusiyyətlərinə görə çox fərqli ibtidai insan sürülərinin (o cümlədən, protohay mənşəli tiqr, tiqrau, tiqran qəbiləsinin də) bu hissədə Nil çayı boyunca hərəkəti fironların 30 nəslini və 3 keçid dövründə (IV-I minilliklərdə) bir sıra təbii və tarixi-ictimai amillərlə sıx bağlı olub. Qədim yunan coğrafiyaşünası Strabon "Coğrafiya" əsərində (XVII kitab, I-II fəsillər) qeyd edir ki, IV-III minilliklərdə Nil çayının hər iki sahilində yerləşən Memfis şəhəri, kökənli misirlilərlə yanaşı, qarışıq tayfa-qəbilə və icma üzvlərindən ibarət olan məşhur İsgəndəriyyə şəhərindən sonra ikincidir. Təbii ki, bu baxımdan həmin dövrdə Şərqi Həbəşistandan köç edən bu qəbilələrin, tayfaların tərkibinə daxil olan ibtidai insan sürüsü formasında həyat tərzi sürən prothayların morfo-genetik şüur və bioloji inkişaf xüsusiyyətlərinin (özəlliklərinin) qan-gen daşıyıcıları sisteminin formalaşması da yuxarıda göstərilən təbii-ictimai amillərin təsiri istisnalıq təşkil etmir. Bu təsirləri aşağıdakı mərhələlər üzrə qiymətləndirmək xüsusilə vacibdir:

- Qədim Yuxarı Misir nomları qonşu Həbəşistan ərazilərində qəbilə-tayfa müharibələrinə müdaxilə edərək, əsir götürdükləri "canlı ölüləri" (onların içərisində protohaylar daha fəal olub) əsasən Nil çayı hövzəsində məskun edərək onlardan suvarma əkinçiliyində, süni suvarma sisteminin tikintisində, məbəd-abidələrin inşasında istifadə ediblər;

- Protohay sürüləri digər tayfalara nisbətən fərqləndikləri üçün (təbii şəraitə uyğunlaşmada, digər qəbilə-tayfa üzvlərinə münasibətdə dəyişkənlikdə, kəşfiyyat səciyyəli məlumatların çatdırılmasında...) onlardan həm də Aşağı Misir padşahlığına qarşı müharibədə, eləcə də yunan-yəhudi hərbi dəstələrinə qarşı döyüşlərdə "həbəş döyüşçüləri" adı altında istifadə ediblər;

- Nil çayının yuxarı axarlarında Yuxarı Misir padşahlığı ərazisində yerləşdirilən hay sürüsü sonrakı dövrlərdə bütün Misir və Nubiya ərazilərinə paylanıb (firionlar üçün ehram və məbədlərin tikintisində, qızıl axtarışı, əldə olunması və emalı sahəsində, qiymətli zərgərlik nümunələrinin hazırlanmasında, metal nəqqaşlığında, toxuculuqda, kahinlərə xidmət etməkdə... süni inam əldə etməklə).

Ona görə də ibtidai hay sürüsünün qədim Misir ərazisində, o cümlədən Nil çayı hövzəsində minilliklər boyunca təbii mağaralarda, quru çay vadilərində-yarğanlarda vəhşi həyat tərzi keçirməsi, qəbilə-icma halında bir yerə toparlanması və protohay toplumunun yaranması mərhələsində təbii amil təsiri onlarda davamlı genetik funksiya daşıyıcısı kimi çıxış edib.

Yuxarıda göstərilən təbii amillərin protohay sürüsünə təsiri baxımından Qədim Misir və Yunan alimlərinin, yazıçılarının, səyahətçilərinin əsərlərində (Herodot, "Tarix", II kitab; Abderli Hekatey, e.ə. 350-290-cı illər, "Misirlilər haqqında"; Diodor Siciliyalı, e.ə. 90-21-ci illər, Cənubi Afrikaya səyahət edən yunan tarixçisi; Aqatarxid, e.ə. 200-140-cı illər, Həbəşistanda və Nubiyada mağaralarda yaşayan troqloditlərdən-ibtidai qəbilə-tayfa icmasından əsərlərində bəhs edən tarixçi; Manefon, e.ə. III əsr, qədim Misir kahini və yunan dilində tarix əsərini yazıb, V əsrdə qədim Alban tarixçisi Xorenasili Musa əsərlərində ona istinad edib; İosif Flaviya, e.ə. 305-283-cü illər, yəhudi tarixçisi və hərbi xadimi, "Yəhudi xalqının qədimliyi" kitabında bu xalqın ilk məskənlərinin Misir ərazisi olduğunu bildirib; 3 kitabdan ibarət "Misir tarixi" və "Herodotun əksinə" əsərlərinin müəllifi; fələstinli Yevseviy 265-339-cu illər roma tarixçisi "Kilsə tarixi" əsərini Qədim Misirə səyahəti əsasında yazıb...) Nil çayı hövzəsinin əhalisinin milli-mənəvi və mədəni irsi dünyagörüşünün, eləcə də qəbilə-tayfa icma birliklərinin həyat tərzinin formalaşmasına (Qədim Misir mədəniyyətinin təşəkkülü baxımından) bu təbii-coğrafi məkanın təsir amillərinin elmi-nəzəri baxımından (yerli təəssüratlarvə tədqiqatlar nəzərə alınmaqla) qiymətləndirilməsi xüsusi maraq doğurur. Bu mövzuları özündə birləşdirən nadir nüsxələr beynəlxalq maddi-mənəvi irs nümunəsi kimi hazırda Misir, Yunan, Ərəb və Qərbi Avropa ölkələrinin tədris ocaqlarında diqqətlə tədqiq edilir və kitabxanalarında saxlanır.



Həmin mülahizələr əsas götürülməklə - Qədim Yuxarı Misir nomlarının qonşu Həbəşistan ərazilərindəki qəbilə-tayfa müharibələrində iştirakı, nəticədə əsir götürdükləri "canlı ölülər"n (protohay sürülərinin sələfləri olan tiqr, tiqrau, tiqran tayfalarının) yuxarı Nil çayı hövzəsində yerləşdirilməsinə (e.ə. IV-III minilliklərdə), onlardan suvarma əkinçiliyində, süni suvarma sisteminin tikintisində, məbəd-abidələrin inşasında istifadə edilməsinin təbii və ictimai amillərin təsiri baxımından təhlil edilməsinə - ətraflı diqqət yetirək. Ona görə də ibtidai protohay sürüsünün bioloji-fizioloji gen daşıyıcılarının genezisinə təbii-ictimai amillərin təsirinin qiymətləndirilməsi baxımından yuxarıda adları çəkilən antik dövrün mütəfəkkirlərinin və əsərlərinin ümumi qayəsini, məzmununu aşağıdakı təzislərlə ümumiləşdirmək olar:

- dünya sivilizasiyasının ən qədim ocağı "Köhnə Dünya"da Afrika qitəsinin şərq (Həbəş dağlıq yaylası, Keniya meşəlikləri) və şimal-şərq (Nil çayı hövzəsi, Nubiya səhrası, Qırmızı dənizin qərb sahilləri) bölgələri olub, ilk dünyəvi dini təlimlər-ocaqlar (məbədlər) bu ərazilərdə yaranıb. Sonrakı mərhələdə bu təkamül Avropaya (əski Yunan-Poma dini-elmi intibahına), Ön Asiya-Ərəbistana (müsəlman dünyasına, islama qədərki və islamdan sonrakı mərhələyə) əsaslı təsir edib, bir növ təkamül mənbəyi (həm də elmi-texniki, maddi-mədəni, hərbi-siyasi və mükəmməl dövlət quruculuğu istiqamətində) rolunu oynayıb.

- bəşəriyyətin ən qədim dirçəliş (bütün anlamlarda təkamül) ocağı e.ə. IV-I minilliklərdə Afrika qitəsinin məlum əski dövlət ərazilərindən yayılan tayfalar, qəbilə icmaları, xalqlar bioloji gen-qan daşıyıcısı kimi Afrika qitəsinə mənsubluğu antik dövrün mütəfəkkirləri tərəfindən təsdiq edilib.

- Afrika qitəsinin qədim sivilizasiya ocaqlarına mənsub olan tayfa-qəbilə və icma üzvlərinin etno-psixoloji və morfo-genetik ilkinliyinin qorunması onların davranış və həyat tərzində ifadə olunur (regional və beynəlxalq hüdudlarda eyni tərzin təkrarlanması baxımından).

Belə ki, indiyə qədər hay kilsəsinin 131 baş keşişi və dünyanı bürümüş "ağıllıları" dil-boğaza qoymurlar ki, ən qədim dini təlim bizə məxsusdur və dünya sivilizasiyasının ilkin nümayəndələri bizik. Onda məntiqi cavab çıxır ortaya:

- Əgər belədirsə, onda nəyə görə dünya sivilizasiyanın beşiyindən və ilkin dini məskənlərindən ayrıldığınızı inkar edirsiniz, belə çıxır ki, "bağa qınından çıxdı, qınını bəyənmədi?"

Axı, qədim Misir kahinlərinin geyim tərzi ilə hay keşişlərinin geyim üslubunun eyniliyi (örtükləri, arxalıqları, nişanları) və müasir erməni əlifbasının həbəş və misir əlifbalarından törəməsi heç kəsdə şübhə doğurmur. Və bütün bu amillərin Qafqazın təbii-ictimai mühütü üçün gətirilmə elementlər olduğu açıq-aydın görünür.

Sonuncu ümumiləşdirməyə bir qədər ətraflı yanaşmaq olar. Təsadüfi deyil ki, bir neçə yüzildir Rusiya tarixçiləri və alimləri də bu sahəyə xüsusi diqqət yetirib, nəticədə bu ölkənin iri tədris-elm ocaqlarında (Moskva, Sankt-Peterburq, Novosibirsk, Yekaterinburq, Nijni Novqorod... şəhərlərində) ayrıca "Qədim Misirşünaslıq məktəbi" yaranıb. Bu baxımdan "rus misirşünası", tarix elmləri doktoru, Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, Çikaqo Universitetinin Şərq İnstitutunun və Misir tədqiqatı üzrə London Cəmiyyətinin üzvü Dmitri Borusoviç Prusakovun 2001-ci ildə müdafiə etdiyi "Eramızdan əvvəl IV-II minilliklərdə qədim Misir: dövlətin və cəmiyyətin təşəkkülündə sosial-iqtisadi amillər" mövzusundakı doktorluq tədqiqat əsərində-fundamental nəşrində irəli sürülən mülahizələrə əsaslanmaq olar.

Beş hissədən ibarət olan bu eimi-tədqiqat əsərinin I ("Qədim Misirin ekologiyası") və II ("Qədim Misirdə birinci sosial-ekoloji böhran və dövlətin yaranması") bölmələrini əhatə edən mövzular Həbəşistan, Keniya və Misir ərazilərində neolit və eneolit dövrlərində (e.ə. VII-V minilliklərdə) keçid alan ibtidai insan sürülərinin, qəbilə-tayfa birliklərinin (falaşların, amxarların (xristianlığın daşıyıcıları), oromoların (onlar özlərinə "qal", "qalu", "qal arusi" deyirlər), tiqran, tiqr, tiqrau (protohay insan sürüsünün ibtidai nəsilləri və başqalarının) region üzrə miqrasiyasına, bu dövrdə baş verən iqlim dəyişikliyinin qəbilə-tayfa icmasının sosial-morfoloji xüsusiyyətlərinə təsiri elmi-nəzəri baxımdan ətraflı qiymətləndirilib. Tarixçi-alimin qənaətinə görə, bu insan birliklərinin sonrakı ictimai-sosial həyat və davranış tərzi ilk növbədə Afrika təbiətinin ekoloji durumunun və inkişaf mərhələlərinin bariz ifadəsidir. Xüsusilə, Həbəş dağlıq yaylasının landşaft elementlərinə və Nil çayının rejim tsikllərinə həsr edilmiş regionun tarixi-coğrafi oçerki bu baxımdan daha qiymətlidir.

Qədim Həbəş və Misir dövlət strukturlarının (quruculuğunun) inkişafı e.ə. IV-I minilliklər ərzində iqlim-relyef amillərinin dəyişkənliyindən əhalinin (həm kökənli, həm də köçürülən) asılılığı sosial-antropolji təkamül mərhələləri üzrə II bölmədə təhlil edilir.

Göründüyü kimi, Cənubi Qafqaz regionuna ayrı-ayrı ərazilərdən keçərək uzaq və qədim Afrikadan miqrasiya edərək məskunlaşdırılan ibtidai hay sürülərinin tərzindən aydın olur ki, əski qəbilə-tayfa xüsusiyyətlərinin formalaşmasına Afrika təbiətinin təsiri ötəri olmayıb. Bu hal onların digər xüsusiyyətlərində də öz əksini tapır...

Bu barədə növbəti yazılarımızda.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

# Məktəblərdə pedaqoji şuraların formallığına nazirlik də tənqidi yanaşdı...

**"Məktəblərdə keçirilən pedaqoji şuraların iclaslarında məktəbləri narahat edən çox ciddi məsələlər müzakirə olunmalıdır. Lakin bir çox hallarda həmin iclaslar formal xarakter daşıyır". Bunu təhsil nazirinin müavini Məhəbbət Vəliyeva "Bakı təhsili: uğurlar və hədəflər" mövzusunda keçirilən konfransda çıxışı zamanı deyib.**

*"...pedaqoji şurada təmsil olunanlar öncədən müəyyən olunmuş qərarı qəbul edir"*

Nazir müavini bildirib ki, əslində, həmin iclaslarda heç kim şura iclaslarının ildə 5 dəfə keçirilməsini tələb etmir: "Zərurət yarananda narahatedici məsələlər, yəni qərar qəbul etmək, fikir bildirmək, fikir mübadiləsi aparmaq üçün bir sıra məsələlər pedaqoji şuraların müzakirəsinə çıxarılmalıdır. Yaxşı olardı ki, bu il keçirilən şura iclaslarına Təhsil Nazirliyinin nümayəndələri də dəvət edilsin. Şəxsən mən, böyük məmnuniyyətlə, bu iclaslarda iştirak edə bilərəm. Çünki belə iclaslarda ortaya qoyulan təcrübələr bütün ölkə üçün faydalı ola bilər".

Ekspertlər də məktəblərdə keçirilən pedaqoji şuraların formal xarakter daşıdığını bildirirlər.

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qanunvericiliyə əsasən, orta məktəblərdə ali orqan pedaqoji şuralardır: "Təəssüf ki, pedaqoji şuraların iclasında öncədən razılaşdırılmış qərarlar qəbul olunur. Bunun da səbəbi pedaqoji şuralara məktəb direktorlarının rəhbərlik etməsidir. Bu sahədə yaşanan formallığı aradan qaldırmaq üçün qanunvericiliyə müəyyən dəyişiklik etmək lazımdır. Bir çox hallarda pedaqoji şuralarda qəbul olunan qərarlar məktəb rəhbərliyinin istəyinə uyğun olaraq həyata keçirilir. Hansısa müəllimin cəzalandırılması və ya şagirdin sinifdə qalması kimi qərarlar iclasda iştirak edənlərin rəyi ilə deyil, direktorun istəyi ilə icra olunur".

Həmsöhbətimizin sözlərinə görə, əksər xarici ölkələrdə pedaqoji şuralara məktəb rəhbərliyi müdaxilə edə bilməz: "Bir çox ölkələrdə, o cümlədən,

***Kamran Əsədov:** "Bu sahədə yaşanan formallığı aradan qaldırmaq üçün qanunvericiliyə müəyyən dəyişiklik etmək lazımdır"*



Türkiyə, Gürcüstan, Avropa və Amerika ölkələrində pedaqoji şuranın qərarı çıxarılarkən valideynlərlə yanaşı, yerli və təhsilə aid qurumlar həmin iclasda iştirak edirlər. Ancaq bizdə isə vəziyyət fərqlidir. Bu səbəbdən də ölkəmizdə keçirilən pedaqoji şuraların fəaliyyəti bizi qane etmir. Bununla yanaşı, məktəblərə nəzarət məsələsinə də diqqət etmək lazımdır".

Ekspert xüsusi olaraq vurğuladı ki, pedaqoji şuraların nizamnamələri Sovet dövründən qalmış əsasnamə əsasında hazırlanıb. Bu səbəbdən pedaqoji şuralar formal xarakter daşıyır: "Bu hal təhsilin əlçatanlığına, inkişafına, əhatə dairəsinin genişlənməsinə mənfi təsir göstərir. Qeyd etdiyim kimi, pedaqoji şurada təmsil olunanlar öncədən müəyyən olunmuş qərarı qəbul edir. Bu üzdən, pedaqoji şuralarda hansısa müzakirənin effekti olmur".

***Günel CƏLİLOVA***

# Azərbaycan xalqına yaraşmayan təzahür - ictimai yerlərdə qadın saçyolduları artır

**Qadın incəlik, zəriflik simvolu olsa da, müəyyən hallarda bəzi Azərbaycan qadınlarının milli adət-ənənələrimizə, dəyərlərimizə zidd davranışlarını müşahidə etməli oluruq. Vaxt vardı ki, qadının səsini nəinki qonşular, heç ailə üzvləri belə eşitmir, o öz abır-həyasına sığınıb həyatını davam edirdi.**



***Mahirə Əmirhüseynova:** "Küçədə, ictimai yerdə dava edən, saçyolduya çıxan, həmcinsi ilə əlbəyaxa olan, təhqiramiz sözlər işlədən qadınlar cəmiyyət üçün pis örnəkdir"*

Bu gün artıq vəziyyət başqadır. Biz bu başqalaşmanı bəzi qadınların hərəkətlərini izləyərkən görə bilirik. Son zamanlar bəzi qadınların müxtəlif ticarət mərkəzləri, gözəllik salonları, paklar, gecə barları, bir sözlə, ictimai yerlərdə dava etməsinin, hətta saçyolduya çıxmasının, bir-birinə şillə-təpik atmasının, bir-birini ağır söyüşlərlə təhqir etməsinin şahidi oluruq.

Hətta sosial şəbəkələr, internet kanallarında qadınlar arasında baş verən fərdi və kütləvi davaların videolarına da, fotoşəkillərinə də, səs yazılarına da rast gəlirik. Qadınlar arasında baş verən bu cür davaların, saçyoldularının əsas səbəbi kimi bölüşdürə bilmədikləri oğlanlar, kişilər göstərilir. Bu qadınların çox vaxt kişi üstündə dava etdikləri qeyd edilir. Bəzi hallarda qadın ərinin sevgilisini "razborkaya" çağırıb onunla haqq-hesabı çürütmək istəyir. Onu da deyək ki, qadınlar arasında başlanan mübahisə böyük davaya çevrilir və camaatın gözü qarşısında baş verən bu davaların sonu polis müdaxiləsi ilə nəticələnir. Hətta dalaşan, saçyolduya çıxan qadınların bir çoxuna da cinayət işi açılır. Yəni tərəflərdən birinin şikayəti əsasında qadınlardan birinin məsuliyyətə cəlb edilməsi təhlükəsi yaranır.

"XXI əsrin qadınları" İctimai Birliyinin sədri Mahirə Əmirhüseynova "Bakı-Xəbər"ə bildirdi ki, ictimai yerlərdə qadınlar arasında baş verən qalmaqallar, mübahisələr və əlbəyaxa döyüşlər, saçyoldular qəbuledilməzdir. Bunun Azərbaycan qadınına yaraşmayan hərəkət olduğunu deyən M.Əmirhüseynovanın sözlərinə görə, bu davaların baş verməsi kişi amili ilə bağlıdır: "İctimai yerlərdə qadınların bu şəkildə dava etməsi, ümumiyyətlə, qadına yaraşmayan hərəkətdir. Hesab edirəm ki, belələrinə də qadın demək olmaz. Mən qadınların ictimai yerlərdə, camaatın gözü qarşısında mübahisə etməsinə, saçyolduya çıxmasına mənfi yanaşıram, normal qadın belə bir hərəkətə yol verməz. Araşdırsanız görərsiniz ki, o qadınlar ziyalı, savadlı qadınlar deyil, tamam başqa yolun yolçularıdır. Çünki savadlı, təhsilli, özünə hörmət edən qadın belə hərəkətlərə yol verməz. Bildiyim qədər, ictimai yerlərdə dava-dalaş edən qadınlar bunu hansısa bir kişiyə, sevdikləri adama görə edirlər, amma bu yolverilməzdir. Qadınlar kişi üstündə dava etməli deyillər. Ümumiyyətlə, kişi üstündə dava etmək, saçyolduya çıxmaq, konfliktə girmək qadına yaraşmır.

*"...bunu hansısa bir kişiyə, sevdikləri adama görə edirlər, amma bu yolverilməzdir"*

Hesab edirəm ki, qadınlar dava etmək əvəzinə, daha da birləşməli, qadınların birliyi sarsılmaz olmalıdır. Küçədə, ictimai yerdə dava edən, saçyolduya çıxan, həmcinsi ilə əlbəyaxa olan, təhqiramiz sözlər işlədən qadınlar cəmiyyət üçün pis örnəkdir".

***Leyla QARAXANLI***

**Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci ildə Türk dünyasının böyük, mütəfəkkir şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi münasibətilə müvafiq sərəncam imzalamışdır. Həmin fərmana uyğun olaraq 2019-cu il Azərbaycanda Nəsimi ili olaraq qeyd edilir.**

# Dövrünün qüdrətli söz və fikir ustadı - Nəsimi zirvəsi

Azərbaycan Respublikası "Ziyalı Ocağı" İctimai Birliyi öz fəaliyyətini bu fərmandan irəli gələn məsələlərin həyata keçirilməsi istiqamətində qurur. Təbii ki, bu işdə birliyə dəstəyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası verir.

İmadəddin Nəsimi kimi söz xiridarının, fikir sahibinin, filosofun bu gün yüksək səviyyədə anılması onun əsl həqiqətdə də əbədiyaşar bir şair olduğunun əyani göstəricisidir. Nəsimi bütün dövrlərin şairidir, zamanının söz sahibi, fikir sahibidir.

Nəsimi yaradıcılığında insan idrakı, özünüdərk anlamı xüsusi məqamda dayanır. Nəsimiyə görə mənəvi yüksəkliyin dörd mərhələsini -şəriəti layiqincə mənimsəyən, seçdiyi təriqət yolunda inamla addımlayan, onu insanlar arasında yayan, ədəb-ərkanı ilə cəmiyyətə örnək olan və ən sonda, bütün həyatını, amalını ilahi eşq ilə yaşayan, çarpışan insan haqqa mütləq şəkildə qovuşacaqdır. İlahi eşqi öz həyatının kredosu seçən bəşər övladı kamilllik mərtəbəsinə çatan insandır. Nəsimi hesab edirdi ki, insan yalnız və yalnız idrakın ali tərbiyəsi ilə küllü kainatın sirlərindən vaqif ola bilər. Bu yolda isə ona ən yaxın köməkçi öz müəllimi, ustadı, müridi, bələdçisi olacaqdır. Fəhminə, idrakına həsəd apardığı Fəzlullah Nəimi də məhz bu yolda İmadəddin Nəsiminin müəllimi-müridi olmuşdu.

Nəsimi ilahi eşq yoluna varanda bu yolun təhlükəli olduğunu bilirdi. O bilirdi ki, XI əsrdə sufizmin banisi Mənsur Həllacı bu təriqəti yaydığına görə edam etmişdilər. O müəlliminin -Fəzlullah Nəiminin edam edilməsinin dəhşətini də yaşamışdı. Lakin çıxdığı yoldan dönməmişdi, qorxmamışdı. Gözlərini qırpmadan, dizlərini bükmədən dar ağacınadək məğrurcasına addımlamışdı. O ölümü ilə ölümsüzlük qazanacağını da bilirdi. Şəhadətə varacağı məkanda ucalacağından da, haqqa varacağından da xəbərdar idi. Ona görə var səsi ilə bütün dünyaya:

- Məndə sığar iki cahan, mən bu cahana sığmazam,



Gövhəri-laməkan mənəm, kövnü məkana sığmazam.-deyərək hayqırırdı.

Arzusu, məramı, məqsədi insanların eyni, bərabərhüquqlu cəmiyyətdə yaşaması olan Nəsiminin buna sözün əsl mənasında, haqqı var idi. Bu böyük düha yer üzünün çiçəklənməsi yolununun kamillikdən, bütünlükdən keçdiyini vurğulayırdı. Onun istəkləri insanlığa, cəmiyyətin çiçəklənməsinə xidmət edirdi. O hər tərəfi tutan saxtakarlığa, yalana, hiyləyə qarşı çıxırdı. İnsanları nadanlığa, cahilliyə qarşı mübarizəyə səsləyirdi. Nəsimi özü də bu cahilliyin, savadsızlığın, böhtanın qurbanı oldu:

-Zahidin əfsanəsindən soydular nahaq məni,

Həq bilir səndən, şəha, sahib nəzərlər ağrımaz.

Zahidin bir barmağın kəssən dönər həqdən qaçar,

Gör bu gerçək aşiqi sər-pa soyarlar ağrımaz.

Bildiyimiz kimi, Nəsiminin yaşadığı dövrdə Azərbaycan Teymurilərin işğalı altında idi və geniş xalq kütləsi tərəfindən silsiləli şəkildə xalq üsyanları baş verirdi. Xalq boyunduruq altında yaşamağı qəbul etmirdi. Ağıllı sözün, fikrin mövcudluğu xalqı öz iradəsini göstərməyə təşviq edirdi. İmadəddin Nəsiminin bir-birindən dəyərli fikirləri və bu fikirlərin toplandığı şeirlər, qəzəllər dildən-dilə düşərək, bütün Şərqi bürümüşdü. Qoca Şərqin elə bir guşəsi tapılmazdı ki, orada Nəsimidən danışılmasın və ondan qəzəllər, ilahilər oxunmasın.

O zaman bütün ədəbisiyasi, fəlsəfi baxışları ilə düşünən beyinlərin rəğbətini qazanan hürufilik təriqətinin fəal təbliğaçısı Fəzlullah Nəimi ilə Bakıda görüş onda hürufilik haqqında böyük təəssüratlar oyadır. Nəsimi hürufilik təlimini qəbul edir.

Nəsimin ictimai-siyasi baxışları onun qələmə aldığı qəzəllərində də özünü göstərir. Qəzəlləri ilə bərabər özü də uzun, məşəqqətli bir yola çıxır. Elə bir yol ki, Nəsimini ölümsüz edəcək, edamına fərman verdirəcək, əbədiyyət üfüqlərində parladacaqdı.

Bir nüansı xüsusilə vurğulamaq lazımdır ki, Nəsimi Azərbaycan poeziyasında ictimai-siyasi fəlsəfənin banisidir. Şirvandan tutmuş Təbrizədək, Anadoludan Karamandan, Diyarbəkirdən, Ankaradan tutmuş Bursayadək, Hələbədək şeirləri sevilərək, dillərdə, ağızlarda gəzən Nəsimi sözünün gücü-qüdrəti bir çox elm-ədəbiyyat bilicиləri tərəfindən yüksək qiymətləndirilmişdir. XVI yaşamış alim Lətifi yazırdı ki, "Türk şeiri ilə ən əvvəl Nəsimi şöhrət tapmışdır".

- Allahu Əkbər, ey sənəm hüsnündə heyran olmuşam,

Qövsü qüzehdir qaşların, yayinə qurban olmuşam.

Nəsiminin bircə bu sözlərlə, bu inamla başlayan qəzəli onun dinsiz, imansız olmadığının əyani nümunəsidir. Bu misralar Nəsimiyə şər, böhtan atanlara tutarlı bir cavabdır.

Aydın fikir, dərin məna, rəngarəng obrazlar, bənzətmə əv məcazlar - budur Nəsimi sənətini sevdirən, onun şöhrətinə ellərə, dillərə düşürən. Onun şeirlərini oxuyan insan istər-istəməz fəlsəfi düşüncələrin təsirinə düşür, müqəddəs varlıq və yaradılmışla bağlı dərin fikirlərə dalır. Və bu fikirlərin qoynunda axtardığını tapmağa çalışır.

Şair bütün kainata sual dolu nəzərlə yanaşır. Dünya və insan mövzusu. Orta yüzillikləri düşündürən bu suallar şairi də bütün yaradıcılığı boyu düşündürür. Nəsimi öz yaradıcılığında köhnə şərq və qərb elmi düşüncəsini birləşdirən mütəfəkkir kimi ucalır. Bədii söz sənətinin bir-birindən gözəl incilərini yaradır. Azərbaycan ədəbiyyatı tarixini yeni bir üslub, deyim tərzi, yeni surət və lövhələrlə zənginləşdirir.

Onun həyat sevgisi və duyğularını əks etdirən nəğmə və şərqiləri məzmunca da, dil-üslub etibarilə də səmimi və aydındır. Şairin bu qəbildən olan şeirlərində işlətdiyi istixarə, məcaz, bənzətmə və bədii mübaliğələri çox əlvan və rəngarəngdir. Ana dilindən alınan bu bədii ifadələr canlı dilimizin özü kimi aydın, gözəldir. Bulaq suyu kimi saf və şəffafdır, dəniz incisi kimi parlaq və dəyərlidir:

- Üzünü məndən nihan etmək dilərsən, etməgil!

Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil!

Bərgi-nəsrin üzrə mişkin zülfünü sən dağıdıb,

Aşiqi bixaniman etmək dilərsən, etməgil!

Sufi dünyagörüşü ilə türk dünyasında önəmli yer tutan şairlərdən Cəlaləddin Mövlanə də, Yunus Əmrə də, Əlişir Nəvai də Nəsimi ilə eyni dini baxışları paylaşırlar. Amma Nəsimi öz fikirlərini daha açıq və hayqıraraq söylədiyi üçün onlardan daha fərqlənir. Bu məqamları Mövlanənin, Əmrənin, Nəvainin yaradıcılığı ilə yaxından tanış olarkən görmək mümkündür. Nəsiminin yaradıcılığı elmi kəşflərlə zəngin olan fikirlərə söykənir. "Sığmazam" qəzəlinin təhlili dediklərimizin bariz nümunəsidir.

Özünün güclü sözü, dəyərli fəlsəfi fikirləri, aydın dünyagörüşü ilə zəngin poeziya nümunələri yaradan İmadəddin Nəsimi məhz bu ilahi istedadı ilə bu günümüzədək məhəbbət və etiramla yad olunur, sevilir.

***İlahə BAYANDUR (ƏLİYEVA)***
***Tədqiqatçı***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə, "Ziyalı Ocağı" İctimai Birliyi tərəfindən "Nəsimi fəlsəfəsinin beynəlxalq təbliği istiqamətində tədbirlərin təşkili" layihəsi çərçivəsində çap olunur.**

# Övladlığa uşaq götürmə sahəsində qeyri-şəffaflıq, hətta cinayət hallarından danışılır...

***Fatimə Hacıbəyli:** "Vaxtilə bəzi uşaq evlərinin rəhbərləri özbaşına uşaqları xarici vətəndaşlara övladlığa verib və o uşaqların heç birinin indiyə qədər taleyi məlum deyil"*

**Övladlığa götürülən uşaqların taleyi hər zaman narahatlıq doğuran məsələlərdən biri kimi cəmiyyəti düşündürür. Bilirik ki, Azərbaycanda müxtəlif uşaq və körpələr evlərindən övladlığa uşaq götürmək ənənəsi olub. Nəinki Azərbaycan vətəndaşları, eləcə də əcnəbi vətəndaşlar ölkəmizdəki uşaq evlərindən övladlığa uşaq götürürlər.**

Övladlığa götürülən uşaqlar isə bir çox hallarda övladına çevrildiyi ailədə "yağ-bal içində" yaşamayıb, hətta elə uşaqlar olub ki, bir yolla həmin evləri tərk edərək yenidən uşaq evinə sığınıb. Belə hallar çox baş verib və uşağı övladlığa götürən "ata-ana" ilə bağlı tədbirlər görülüb. Məsələ burasındadır ki, vaxtilə Azərbaycanda övladlığa uşaq götürmə sahəsində qanunvericilkdəki bəzi boşluqlar o uşaqların özünün sonrakı taleyinin müəmmalı olmasına şərait yaradıb. Əvvəllər ölkəmizdə övladlığa uşaq götürmə sahəsində qeyri-şəffalığın olması, hətta bunun cinayət səviyyəsinə qədər gəlib çatması tendensiyası mövcud olub. Övladlığa götürülən uşaqların hamısı olmasa da, xeyli bir qismi həmin ailələrdə zorakılıqla, döyülmə ilə qarşılaşıb. Hətta elə ailələr olub ki, uşaq evindən övladlığa uşaq götürdükdən sonra özlərinin də övladları dünyaya gəlib və bu zaman ailə uşaq evindən götürdüyü uşaqdan imtina edib. Cəmiyyətdə gəzən söz-söhbətlərə görə, bəzi hallarda övladlığa götürülən uşaqlar müxtəlif şəkillərdə istismar da ediliblər. Bu baxımdan,cəmiyyətimizdə ən həssas məsələlərdən biri övladlığa uşaq götürməklə bağlıdır ki, bu da həm dövləti, həm də ictimaiyyəti dərindən düşündürür. Ekspertlərin bildirdiyinə görə, bu gün cəmiyyətdə daha çox yayılan və müzakirə edilən problemlərdən biri də övladlığa götürülən uşaqların sonrakı taleyidir. Fakt budur ki, uşaq övladlığa verildikdən sonra onun taleyi ilə nə övladlığa verən tərəf maraqlanır, nə də övladlığa götürənlər bu barədə informasiya verirlər. Ortada qalan talesiz, kimsəsiz uşaqlar olur. Ekspertlər qeyd edir ki, bir sıra hallarda uşaq evlərinin rəhbərləri pul müqabilində müəyyən adamlarla danışıqlara gedib uşaqları "övladlığa" veriblər, beıə demək mümkünsə satıblar. Uşaq evlərində uşaqların satılması barədə məlumatlar dəfələrlə medianın gündəmində yer tutub. Söz yox ki, əlaqədar dövlət qurumları uşaq evlərində uşaq alveri ilə məşğul olan rəhbərliyi cəzalandırıblar, amma bu cəzalandırma prosesi də bu yolu tutanları öz əməllərindən çəkindirə bilməyib. Bu sahədə bəzi neqativ hallar və qeyri-şəffaflıq hələ də qalmaqdadır.

Keçən ildən başlayaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi övladlığa uşaqg-ötürmə sahəsində yeni qaydalar və mexanizmlər hazırlamağa başlayıb. Nazirlikdən deyiblər ki, bu sahədə yeni Alt sistemdə bu model yenidən nəzərdən keçirilir. Prezident İlham Əliyevin Sərəncamı ilə yeni övladlığa götürmə modeli tətbiq olunması nəzərdə tutulur. Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimovun sözlərinə sözlərinə görə, bu prosesin mərkəzində uşağın mənafeyi dayanmalıdır:"Yeni modelin üstün cəhəti budur ki, gələcək valideynlərlə müsahibələr ediləcək, onlar təlimlərə cəlb olunacaq. Hətta həmin valideyn namizədləri sosial müəssisələrə gedərək uşaqları ziyarət edəcəklər və uyğunlaşma prosesi gedəcək. Ondan sonra uşaq üç aylıq həmin ailəyə veriləcək. Sosial cəhətdən qiymətləndirmə aparılacaq, əgər o ailə uşağı götürməyə hazırdırsa, rəy əsasında məhkəməyə müraciət ediləcək".

Nazir müavini bildirib ki, əvvəllər ailələr sağlamlıq imkanları məhdud olan uşaqları övladlığa götürməyə maraq göstərmirdi:"Təxminən 1500 belə uşaq valideynlərdən məhrum olunub. Onlar gələcəkdə övladlığa götürülə bilər. Statistikaya nəzər salsaq, son üç il ərzində övladlığa götürmə ilə bağlı faiz çox aşağıdır. Bütün bunları nəzərə alaraq sistemin çatışmazlıqlarını bir daha nəzərdən keçirdik. Bu məsələ artıq Milli Məclisdə də müzakirəyə çıxarılıb. Övladlığa götürmə ilə bağlı vətəndaşların işini asanlaşdırmağa çalışırıq. Düşünürük ki, noyabrın 1-dən artıq övladlığa uşaq götürmə ilə bağlı yeni Alt sistem tətbiq olunacaq"-deyə o qeyd edib.

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli bizimlə söhbətində bildirdi ki, bu gün övladlığa uşaq götürmə məsələsi doğrudan da ciddi problemdir və bu problem daha çox o uşaqların gələcək taleyi ilə bağlıdır. "Bilirsiz ki, uzun illər Azərbaycanda övladlığa uşaq götürmə sahəsində ciddi problemlər, qeyri-şəffaflıq, hətta cinayətə yol açan faktlar baş verib. Vaxtilə bəzi uşaq evlərinin rəhbərləri özbaşına uşaqları xarici vətəndaşlara övladlığa verib və o uşaqların heç birinin indiyə qədər taleyi məlum deyil. Bu sahədə ən böyük problem əvnəbilərə övladlığa verilən uşaqlarla bağlıdır. Bu uşaqlar adları, soyadları dəyişdirilərək fərqli xarici ölkələrə aparılıblar. Bu gün ortada xarici vətəndaşlara övladlığa verilən uşaqların siyahısı belə yoxdur, bəlkə bu siyahı rəsmi dövlət qurumlarında var, amma ictimaiyyətə açıqlanmayıb. Əcnəbilərə övladlığa verilən uşaqlar qeyri-azərbaycanlı kimi böyüdülüb, tərbiyə ediliblər, bəlkə sabah onlardan Azərbaycan dövlətinin əleyhinə də istifadə ediləcək, kim bilir. Ümumiyyətlə, uzun illərdir ki, övladlığa verilən uşaqlarla bağlı mütəxəssislər tərəfindən həyəcan təbili çalınır, o uşaqların taleyindən xəbərsizik. Bu gün küçə uşaqlarından çox danışılır. Hər birimiz o uşaqlarla rastlaşırıq, onların arasında övladlığa verilən və övladlığa verildiyi ailədə şiddət görüb qaçan uşaqlar da olmamış deyil. Övladlığa verilən uşaqların taleyi hər bir vətəndaşı narahat etməlidir. Bu uşaqların öz doğmaları tərəfindən küçələrə, uşaq evlərinin qarşısına atılması azmış kimi, onların çoxunu sonradan qaranlıq tale də gözləyir.



*"Bu sahədə ən böyük problem əcnəbilərə övladlığa verilən uşaqlarla bağlıdır"*

Artıq dövlət bu sahədə yeni qaydalar hazırlayır, övladlığa götürmə mexanizmini dəyişir və bir qədər şərtləri çətinləşdirir. Bu çox yaxşı haldır. Bundan sonra övladlığa uşaq verilərkən həmin ailə incələnəcək və övladlığa verilən uşağın taleyi nəzarətdə saxlanacaq. Düzdür, hələ bu mexanizm işə düşməyib. Amma mexanizm işə düşdükdən sonra bu sahədə qeyri-şəffalığa son qoyacaq. Əvvəllər eşidirdik ki, hanısa uşaq evinin rəhbəri körpələri satır və aktı rəsmləşdirmir. Yeni qaydaların bəzi uşaq evlərinin rəhbərlərinin neqativ əməllərinə də son qoyacağını düşünürəm"-deyə F.Hacıbəyli qeyd etdi.

***İradə SARIYEVA***

№ 185 (4083) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

17 OKTYABR 2019-cu il

www.baki-xeber.com

## "Uşaq Qaynar Xәtt" xidmәti artıq qısa nömrәdә

*Psixi Sağlamlıq gününә hәsr olunan konfransda "Azercell"in tәşәbbüsü ilә "Uşaq Qaynar Xәtt" xidmәtinin istifadәsinә verilәn 116-111 qısa nömrәsinin tәqdimatı keçirilib*

**"Azercell Telekom" MMC, Azәrbaycan Tibb Universiteti, Sәhiyyә Nazirliyinin İctimai Sәhiyyә vә İslahatlar Mәrkәzi, Ümumdünya Sәhiyyә Tәşkilatı, "Ümidli Gәlәcәk Sosial Tәşәbbüslәr" İctimai Birliyinin birgә әmәkdaşlığı vә müvafiq dövlәt qurumlarının nümayәndәlәrinin iştirakı ilә 15 oktyabr tarixindә "Four Seasons" otelindә "Psixi Sağlamlıq: intiharların profilaktikasında tibbi vә icma әsaslı yanaşmalar" adlı elmi-praktik konfrans keçirilib.**

Konfransda çıxış edәn mәruzәçilәr "Azәrbaycanda psixi sağlamlıq xidmәtlәri", "Uşaq Qaynar Xәtlәri vә uşaqlar arasında intihar hallarının önlәnmәsi" , "Uşaq tәhsil müәssisәlәrindә psixi sağlamlığın tәşviqi vә mühafizәsinә yanaşmalar", "Psixi sağlamlığın mühafizәsindә innovativ yanaşmalar" vә digәr gündәmdә olan mәsәlәlәrә toxunublar. Tәdbirdә "Azercell"in tәşәbbüsü ilә"Uşaq Qaynar Xәtt" xidmәtinin yeni istifadәyә verilәn 116-111 qısa nömrәsinin tәqdimatı da baş tutub. Vurğulayaq ki, "Azercell" müasir dövrdә yeniyetmә vә azyaşlıların fiziki vә psixi sağlamlığını hәssas mәsәlә hesab edir. Çәtin durumda olan, yardıma ehtiyac duyan insanların kömәyinә çatan "Uşaq Qaynar Xәtt" xidmәti şirkәtin dәstәklәdiyi önәmli layihәlәr sırasındadır. Öz fәaliyyәtindә bir sıra sosial layihәlәri hәyata keçirәn "Azercell", onların texnoloji cәhәtdәn tәkmillәşmәsinә dә xüsusi diqqәt ayırır. Şirkәtin tәşәbbüsü ilә 2017-ci ildә "Uşaq Qaynar Xәtt" xidmәtinin Android vә iOS әmәliyyat sistemlәrini dәstәklәyәn mobil tәtbiqi istifadәyә verilib. Bununla da "Uşaq Qaynar Xәtt" xidmәtinin dünyanın istәnilәn nöqtәsindә әlçatan olması tәmin edilib. Qısa nömrә sayәsindә isә dәstәyә ehtiyacı olan gәnclәr daha rahat "Qaynar Xәtt"in әmәkdaşları ilә әlaqә quraraq, onları narahat edәn mәsәlә ilә bağlı bölüşә vә mәslәhәt ala bilәcәklәr.

Mәlumat üçün bildirәk ki, fәaliyyәt göstәrdiyi 9 il әrzindә "Uşaq Qaynar Xәtt" xidmәtinә 38 000-dәn çox müraciәt daxil olub. "Azercell"in dәstәyi, "Ümidli Gәlәcәk Sosial Tәşәbbüslәr" İctimai Birliyinin tәşkilatçılığı ilә 24/7 rejimdә fәaliyyәt göstәrәn "Uşaq Qaynar Xәtt" xidmәtinә hәm şәhәrdaxili, hәm dә "Azercell" nömrәlәrindәn edilәn zәnglәr ödәnişsizdir. (012) 480 22 80, (050) 680 22 80, (051) 880 11 80, (051) 880 22 80, (051) 580 22 80 vә 116-111 nömrәlәri ilә günün istәnilәn saatında xidmәtә müraciәt etmәk mümkündür.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## Elan

"AZ TİKİNTİ" ASC-nin VÖEN 1100099571 şәhadәtnamәsi itdiyi üçün etibarsız sayılır.

Haqverdiyeva Nәrmin Şahin qızına Bakı Biznes Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Mәlikova Ayla Bahadur qızına Bakı Dövlәt Rabitә vә Nәqliyyat Kolleci tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Mәmmәdli Üzeyir Oqtay oğluna Qәrb Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Abdullayev Füzuli Daşdәmir oğlunun adına, Siyәzәn rayonunda yerlәşәn torpaq sahәlәrinә verilmiş dövlәt aktları (JN - 0782 vә JN - 0747) itdiyi üçün etibarsız sayılır.

## Misirdә firon IV Ptolemeyin 2 200 il yaşı olan sәrdabәsi tapıldı

**Misir arxeoloqları firon IV Ptolemeyin 2 200 il yaşı olan vә uzun müddәtdir axtarılan sәrdabәsini tapıblar. "CNN" telekanalının saytı xәbәr verir ki, qәdim sәrdabә tikinti işçilәrinin şimaldakı Sohag rayonunun Tama qәsәbәsindә yerlәşәn Kom Şakav kәndindә apardıqları qazıntı zamanı tәsadüfәn aşkar edilib.**



Misirin Qәdim Abidәlәr Nazirliyinin mәlumatına görә, arxeoloqların hәmin sәrdabanın firon IV Ptolemeyә aid olması barәdә rәyindәn sonra әrazidә tikinti işlәri dayandırılıb. Belә ki, alimlәr burada Ptolemey sülalәsinin dördüncü fironunun tәsviri vә qәdim Misir әlifbası ilә yazılmış mәtn olan lövhәlәri aşkar ediblәr. Lakin onlar hәlә sәrdabәnin şimal-cәnub divarlarını üzә çıxara bilmәyiblәr. Mәbәdin şәrq-qәrb divarlarının üzәrindә isә hәr il Nil çayının daşması üçün dua edilәn Hapi tanrısının quşların vә çiçәklәrin әhatәsindә tәsviri aşkar edilib. IV Ptolemeyin eramızdan әvvәl 221-204-cü ildә Misir fironu olduğu ehtimal edilir. Onun hökmranlığı o qәdәr dә uğurlu olmayıb vә fironun dövlәti idarә etmәkdәn daha çox, incәsәnәtә meyilli olduğu bildirilir. Tapılan qәdim mәtndә qeyd olunur ki, IV Ptolemeyin dövründә әn böyük gәmi inşa edilib. "Tessarakonteres" (qırx) adlanan bu gәminin 40 avar bölmәsi vә 4 min avarçәkәni olub. Qeyd olunub ki, bu sәrdabәnin aşkar edilmәsi Misirdә arxeoloji tapıntılar seriyasının davamıdır. 2004-cü ildә Almaniya vә Misir arxeoloqlarından ibarәt qrup Nil çayının deltasında qranit lövhә tapıblar. Bu lövhә tәsdiq edib ki, Yuli tәqviminә keçilmәsinә tәşәbbüs Yuli Sezardan hәlә 200 il öncә göstәrilib. Müasir Əz-Zәkәzik şәhәri yaxınlığındakı tarixi Tell-Bәstә (qәdim Bubastis) rayonunda tapılmış bu daş sütun hökmdar III Ptolemey Evergetin (e.ә. III әsr) hökmranlığı dövrünә aiddir. Daş lövhәdә qәdim yunan dilindә hökmdarın gördüyü işlәri vәsf edәn mәdhnamә hәkk olunub. Bundan başqa, bu yaxınlarda Giza Kom Ombo sfinksinin yaxınlığındakı Dahşur nekropolunda Ptolemey sülalәsinin hökmranlığı (e.ә. 323-30-cu illәr) dövrünә aid sәkkiz mumiya da tapılıb. Asvan yaxınlığında yerlәşәn qәdim mәbәddә isә Sobek timsah tanrısının heykәli tezliklә turistlәrin gәldiyi Şarm-әl-Şeyx qәsәbәsindәki muzeyә qoyulacaq. Açılışı çoxdan gözlәnilәn Böyük Misir Muzeyinin eksponatları da tamamlanmaq üzrәdir vә onun 2020-ci ilin ortalarında paytaxt Qahirәdә qapılarını ziyarәtçilәrә açması nәzәrdә tutulub.

## Qazaxıstanda üzәrindә brilyant daş olan sikkәlәr buraxıldı

**Qazaxıstan Milli Bankı "Sevilәn heyvanlar - köçәri totemlәri" silsilәsindәn "Üki" (yapalaq) adlı yeni kolleksiya sikkәlәri buraxıb.**

"AZƏRTAC" xәbәr verir ki, bu barәdә Milli Bankın mәlumatında bildirilir. Qeyd olunur ki, 5 min vә 500 tәngә dәyәrindә olan, habelә melxior әrintisindәn düzәldilmiş 200 vә 100 tәngәlik sikkәlәr kolleksiyaçılar üçün nәzәrdә tutulub. Onların dizaynı "sak tayfasının heyvan tәsviri üslubu" әsasında yaradılıb. Bayquşkimilәr fәslindәn olan yapalaq bir çox xalqlarda müdriklik, bilik vә uzaqgörәnlik rәmzi hesab olunur. Köçәri tayfalar bu quşu müqәddәs sayıblar vә onun insanları bәd nәzәrdәn qoruyacağına inanıblar. Milli Bankın mәlumatında bildirilir ki, 5 min vә 500 tәngә dәyәrindә olan gümüş sikkәlәr nazik qızıl tәbәqә ilә örtülüb vә üzәrindә brilyant daş yerlәşdirilib. Sikkәlәr Qazaxıstan Milli Bankının zәrbxanasında hazırlanıb. Yaxın günlәrdә onların tәdavülә buraxılması gözlәnilir.





**Qoç** - Yaşananların mәzmununu anlamağa çalışın. Onsuz da gәrgin olan әlaqәlәri ağırlaşdırmayın. Yeni ideyaları reallaşdırmağa tәlәsmәyin. Olaylarda yeni mәrhәlә, dönüş anı yaxınlaşır.



**Buğa** - Xarici görkәminizdә vә ümumiyyәtlә, yaşamınızda nәyi dәyişәcәyinizә qәrar verin. Aktiv olun, intensiv fәaliyyәt göstәrin. Ötәnlәrdә özünü dәfәlәrlә doğrultmuş metodları seçin.



**Əkizlәr** - Günün ilk yarısından etibarәn aktiv çalışın. Qarşınıza qoyduğunuz mәqsәdә doğru qәtiyyәtlә irәlilәyin. Tamamilә yeni sahәdә tapşırıqlar vә sifarişlәr ala bilәrsiniz.



**Xәrçәng** - Sәhәr saatlarında vurnuxma, işlәrin sürәtli artımı istisna deyil. Anlaşılmazlıqlar vә mübahisәlәrdә haqsızlığa rәvac vermәyin. Emosional durumlarda soyuqqanlı davranın.



**Şir** - Bәdxahları pәrişan etmәyin әn rahat yolu onların dedi-qodularına, şayiәlәrinә fikir vermәmәkdir. Özünüzü, maraqlarınızı düşünün. Yoxsul yox, varlı olmağa can atın.



**Qız** - Günün ilk yarısında cәhdlәriniz әn yaxşı effekti verәcәk. Bu vә ya digәr mәsәlәnin çözüm sürәti zәhmәtkeşliyinizdәn, inadınızdan asılıdır. Sizdәn asılı olmayan amillәrlә tәmayüllәri dә unutmayın.



**Tәrәzi** - Hiperaktivlik etmәyin, mәzmununa bәlәd olmadığınız işlә bağlı tәşәbbüsә qapılmayın. Mәlumatlar toplayın, müşahidә edin, deyilәnlәrә qulaq asın. Müzakirәlәr vә toplantılar üçün yaxşı zamandır.



**Əqrәb** - Aktual mәsәlәlәrin hәlli, peşәkar fәaliyyәt vә maliyyә sahәsindә yaranmış problemlәrin aradan qaldırılması üçün günün ilk yarısı әn optimal zamandır. Axşam saatlarınızı yaxınlarınızla birlikdә, mәnalı istirahәtә üstünlük verәrәk keçirin.



**Oxatan** - Ətrafınızdakı situasiyanı tam anlamasanız da, tәlәsik qәrarlar vermәyә tәlәsmәyin. Situasiyadan asılı davranmayın. Hәrәkәtlәriniz xaotik, qarışıq, zidiyyәtli olmasın.



**Oğlaq** - Maraqlandığınız işlәrlә sәhәr saatlarından mәşğul ola bilәrsiniz. Diqqәtli vә sayıq olun. Karyera müstәvisindә uğurlar istisna deyil. Yaradıcılıqla bağlı planlarınıza dәyişikliklәr dә mümkündür.



**Dolça** - Maddi mәsәlәlәrlә bağlı müәyyәn problemlәr yarana bilәr. Çevik vә sayıq davranın. Maddi sahәdә yeniliklәr istisna deyil. Yanlışlıqlar sizә ağrılı problemlәr vәd etmir.



**Balıqlar** - İşgüzar tәmaslarda diqqәtli olun. Başqalarının mәslәhәtlәri ilә davranaraq maraqlarınızı qurban vermәyin. Ən müxtәlif yaşda vә sosial durumda olan insanlarla dil tapmağa çalışın.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## "Konqo" adlı şimpanzenin çәkdiyi rәsmlәr Londonda sәrgilәnәcәk

**Londondakı "The Mayor Gallery" qalereyasında "Konqo" adlı şimpanze tәrәfindәn çәkilmiş rәsmlәrin satış sәrgisi keçirilәcәk.**

Xarici KİV-lәrә istinadla xәbәr veriLİr ki, qalereyada dәyәri 1800-7400 dollar mәblәğindә qiymәtlәndirilәn 55 rәsm nümayiş etdirilәcәk.

Onlar rәssam-zooloq Desmond Morrisә mәxsusdur. Mәhz o, 1956-cı ildә meymunların bәdii qabiliyyәtlәrini tәdqiq edәrәk "Konqo"ya qәlәm tutmaq öyrәtmişdi.

Şimpanze üç il әrzindә 400-dәn çox rәsm çәkib. Pablo Pikasso, Xuan Miro vә Salvador Dali kimi rәssamlar onların bәzilәrini öz kolleksiyaları üçün alıb. "Konqo" 1964-cü ildә vәrәm xәstәliyindәn ölüb. 2005-ci ildә şimpanzenin rәsmlәri "Bonham's" hәrracında Uorhol vә Renuarın әsәrlәrindәn baha qiymәtә - 25 min dollara satılmışdı.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.